

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## YAP Mərkəzi Aparatı qardaş Türkiyə xalqına başsağlığı verib

4

# Azərbaycan idman dövlətidir




2

Prezident İlham Əliyev: "Azərbaycan idman dövləti kimi öz gücünü müxtəlif beynəlxalq yarışlarda təsdiqləyir"

SƏS
№ 238 (7163)
25 dekabr 2024-cü il.
Qiymәti 60 qәpik

# Ukraynada sülh, yoxsa müharibə?

**Rusiya və ABŞ liderləri danışıqlara hazırdırlar**



4

## "Prezidentin sərəncamında hökumətə tapşırıq verilir ki..."



6

## Yeni İl günü Bakıdakı otellərdə QİYMƏTLƏR



12

## Bir zamanlar "Beşdaş", "Evcik-evcik", bəs indi?..



14

## "Mançester Siti" bu futbolçuları satışa çıxarır



16

## Repetitor "biznesi" məktəbi və təhsili çökdürür...



6

# Azərbaycan idman dövlətidir

## Prezident İlham Əliyev: "Azərbaycan idman dövləti kimi öz gücünü müxtəlif beynəlxalq yarışlarda təsdiqləyir"






**“2024-cü il də Azərbaycan idmanı üçün uğurlu olmuşdur. Azərbaycan idmançıları beynəlxalq yarışlarda ölkəmizi ləyaqətlə təmsil etmişlər, 1700-ə yaxın medal qazanılmışdır”. Bu sözləri Prezident İlham Əliyev 2024-cü ilin idman yekunlarına həsr olunan mərasimdə çıxışı zamanı söyləyib. Bunun idmanımızın inkişafını göstərdiyini vurğulayan dövlətimizin başçısı qeyd edib ki, yeni nəsil idmançılar yetişir və beləliklə, Azərbaycan idman dövləti kimi öz gücünü müxtəlif beynəlxalq yarışlarda təsdiqləyir”.**

Azərbaycanda idman hərəkatı Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra inkişaf etməyə başladı. Bununla da, demək olar ki, Azərbaycanın dünyada idman ölkəsi kimi tanınmasının əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyuldu. Müasir dövrdə bu siyasəti uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin davamlı və məqsədyönlü fəaliyyətinin nəticəsidir ki, Azərbaycan dünyada aparıcı idman ölkələrindən biri kimi tanınır. Azərbaycanda keçirilən Dünya və Avropa çempionatları bir daha sübut etdi ki, həqiqətən də, Azərbaycanda idman uğurla və sürətlə inkişaf edir. Azərbaycanda Olimpiya Hərəkatının inkişafı Azərbaycan Prezidenti İlham Əliyevin adı ilə bağlıdır. Milli Olimpiya Komitəsinə Cənab İlham Əliyev Sədr seçiləndən sonra Azərbaycanda Olimpiya Hərəkatı vüsət almağa başladı. Bu illər ərzində Milli Olimpiya Komitəsinin təşkilati və quruculuq işləri bir an belə səngimədi. Azərbaycanın hər bir yerində yeni və müasir idman komplekslərinin tikintisinə başlanıldı. Azərbaycan Milli Olimpiya Komitəsi başqa Olimpiya komitələri üçün örnək oldu. 1998-ci ildə respublikamız ilk dəfə Qış Olimpiya Oyunlarına qatıldı. Yaponiyanın Naqano şəhərində keçirilən XVIII Qış Olimpiya Oyunlarında respublikamız 5 nəfər idmançı ilə dörd yarışda təmsil olundu. 2000-ci ildə Sidney Olimpiyadasında Azərbaycan idmançıları 2 qızıl, 1 bürünc medal qazandı. Azərbaycan komanda hesabına 199 ölkə arasında 34-cü, Avropa ölkələri arasında isə 23-cü oldu. Bu ölkənin Olimpiya hərəkatı tarixində ən böyük uğuru idi. 2002-ci ildə Azərbaycan ikinci dəfə Qış Olimpiya Oyunlarının iştirakçısı oldu. ABŞ-ın Soit Leyk siti şəhərində keçirilən bu oyunlarda idmançılarımız 3 yarışda iştirak etdilər. Beləliklə, Azərbaycan idmançıları olimpiya oyunlarında möhtəşəm uğurlara imza atdılar.

### AZƏRBAYCAN MÜSƏLMAN ÖLKƏLƏRİ ARASINDA ÜÇÜNCÜ YERDƏ QƏRARLAŞDI

”Əlbəttə ki, ilin ən böyük yarışı Yay Olimpiya Oyunları idi və burada da biz tarixi nəticə əldə etmişik. Azərbaycan müstəqil ölkə kimi 1996-cı ildən Olimpiya Oyunlarında iştirak edir və bu dəfə ən yüksək yerə layiq görülmüşdür, komanda hesabında Azərbaycan 30-cu yerdə qərarlaşmışdır. Bu, ən yüksək nəticədir. Bütövlükdə iki yüzdən çox milli komanda Olimpiya Oyunlarında iştirak edirdi. Onların arasında 30-cu olmaq çox böyük nailiyyətdir”, - deyə Prezident bildirib. Müsəlman ölkələri arasında Azərbaycan üçüncü yerdə qərarlaşdı. ”Nəzərə alsaq ki, dünyada 60-a yaxın müsəlman ölkəsi var, bu da böyük və tarixi nailiyyətdir. Komandamız ikisi qızıl, ikisi gümüş, üçü bürünc olmaqla yeddi medal qazanaraq ölkəmizin idman şöhrətini bir daha yüksəklərə qaldırmışdır”, - deyə Prezident qeyd edib. Bu il idmançılarımız ”Paris-2024” Yay Paralimpiya Oyunlarında uğurla iştirak etdilər. Paris Paralimpiadasında Azərbaycan 7 növdə 18 idmançı ilə təmsil olunurdu. ”Paris-2024” Yay Paralimpiya Oyunlarında da idmançılarımız uğur qazanıblar.

Qeyd edək ki, ”Paris-2024” Yay Paralimpiya Oyunlarında 7 idman növü üzrə 18 idmançı ilə təmsil olunan Azərbaycan 4 qızıl, 2 gümüş və 5 bürünc olmaqla ümumilikdə 11 medal qazanıb. Ölkəmiz medal sıralamasında 169 ölkə arasında 28-ci yeri tutub.

### ”BU YAY OLİMPİYA OYUNLARINDA AZƏRBAYCAN MÜZƏFFƏR ÖLKƏ KİMİ, QALİB ÖLKƏ KİMİ İŞTİRAK EDİRDİ”

Azərbaycan Prezidenti İlham Əliyevin davamlı və məqsədyönlü fəaliyyətinin nəticəsidir ki, Azərbaycan dünyada aparıcı idman ölkələrindən biri kimi tanınır. Azərbaycanda keçirilən Dünya və Avropa çempionatları bir daha sübut etdi ki, həqiqətən də, Azərbaycanda idman uğurla və sürətlə inkişaf edir. Müasir dövrümüzdə Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər mühiti formalaşıb. Gənclər siyasəti gənc nəslin ictimai-siyasi həyatdakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, bütövlükdə, kreativ gəncliyin formalaşmasına geniş imkanlar açıb. Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli iştirakının təmin olunması, milli-mənəvi dəyərlərə bağlılığının möhkəmləndirilməsi üçün dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir. Xalqımızın qəhrəmanlıq tarixini yazanlar da gənclərdir. Qazanılan uğurlar, bir daha onu sübut edir ki, hər bir gənc ölkə qarşısında qoyulan böyük məqsədi və məsuliyyəti dərk edir. ”İdmanın və idman qələbələrinin ictimai məkanda çox böyük rolu var, - deyən Prezident bildirib ki, xüsusilə gənc nəslin yetişdirilməsi, vətənpərvərlik hisslərinin gənc nəslə aşılanması üçün idman amili çox böyük məna daşıyır: ”Nəzərə alsaq ki, bu Yay Olimpiya Oyunlarında Azərbaycan müzəffər ölkə kimi, qalib ölkə kimi iştirak edirdi, idmançılarımız isə müzəffər xalqın nümayəndələri kimi iştirak edirdilər. Əlbəttə ki, bu vətənpərvərlik amili daim diqqətdə olmalıdır”.

### ”İDMANÇILARIMIZ QALİB ÖLKƏNİN NÜMAYƏNDƏLƏRİ KİMİ İDMAN ARENALARINA, DÖŞƏKLƏRƏ, İDMAN MEYDANÇALARINA TAMAMİLƏ FƏRQLİ BİR OVQATLA ÇIXIRDILAR”

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin son illərdə həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olması ilə nəticələndi. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun işğal altında olan torpaqlarımızı azad etmək məqsədilə Zəfər yürüşünə başlaması və qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağı edərək qələbə qazanması tariximizə yeni gün olaraq daxil edildi. Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən təsdiqlənən mükəmməl hərbi strategiya və taktika döyüş meydanında Azərbaycan Ordusunun ”Dəmir yumruq” əməliyyatını sürətlə və az itki ilə həyata keçirməyə imkan verdi. Azərbaycan Prezidenti İlham Əliyevin dediyi kimi, O, ata vəsiyyətini, Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusunu - Qarabağın mənfur düşmənlərdən, işğalçı ermənilərdən azad olunmasını gerçəkləşdirdi.

Qazanılan bütün nailiyyətlərin əsasında Ümummilli Lider tərəfindən müəyyənləşdirilən siyasi kurs və Prezident İlham Əliyevin bu siyasi kursu uğurla davam etdirməsi faktı dayanır. Əlbəttə ki, bu Zəfər hər bir azərbaycanlının başını uca edib, onları qürurlandırır. Bu gün dünya ölkələrinə müxtəlif məqsədlərlə səfər edən insanlarımız Qalib xalqın nümayəndəsi olaraq fəxarət hissi keçirirlər. Dünya arenasında idman ölkəsi kimi tanınan Azərbaycanın idmançıları bu gün yarışlara qalib ölkənin nümayəndələri kimi qatılırlar. ”Əminəm ki, bu dəfə idmançılarımız qalib ölkənin nümayəndələri kimi idman arenalarına, döşəklərə, idman meydançalarına tamamilə fərqli bir ovqatla çıxırdılar. Bu gözəl nəticə dövlətimizin gücünü bir daha göstərdi” - deyən Prezident bildirib ki, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsində idman nə qədər vacibdirsə, bir o qədər də hərbi hazırlıq və fiziki hazırlıq vacibdir: ”Fiziki güc mənəvi saflığa da yol açır və şadam ki, bizim idmançılarımızın mütləq əksəriyyəti idmanda da, məişətdə də, cəmiyyətdə də nümunədirlər, örnəkdirlər.

*Ardı Səh. 3*

Əvvəli Səh. 2

# Azərbaycan idman dövlətidir

## Prezident İlham Əliyev: "Azərbaycan idman dövləti kimi öz gücünü müxtəlif beynəlxalq yarışlarda təsdiqləyir"

Onların davranışı, cəmiyyətdəki fəaliyyəti məni və əminəm ki, bütün xalqımızı sevindirir. Azərbaycan gənci məhz belə olmalıdır - vətənpərvər, fiziki cəhətdən güclü, mənəvi cəhətdən saf, öz xalqına, dövlətinə bağlı, heç bir kənar təsirə boyun əyməyən və ləyaqətli Azərbaycan gənci. Yenə də deyirəm, əlbəttə ki, 1996-cı ildən bu yana bütün Olimpiya Oyunlarında iştirakımız, o cümlədən bu məqsədi daşıyırdı. Biz özümüzə də, dünyaya da sübut etməli idik və edirdik ki, biz güclü dövlətik. Hər dövlətin gücü isə onun xalqının gücünə söykənir".

### "BİZİM BUNDAN SONRAKI FƏALİYYƏTİMİZ TƏBİİ Kİ, İDMANIN İNKİŞAFI İLƏ BAĞLI OLACAQ"

Azərbaycan Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə ölkə həyatının bütün sahələrində olduğu kimi, idmanın inkişafına yönəlmiş qərarların qəbulu, tədbirlərin reallaşması idman sahəsində ölkəmizin yüksək beynəlxalq nüfuz qazanmasına səbəb olub. İdmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, idmançıların peşəkar səviyyədə hazırlanmasına göstərilən qayğı öz müsbət nəticəsini verib. Müxtəlif idman növləri - güləş, futbol, intellektual oyunlar, şahmat və s. növlərdə Azərbaycan Avropanın və dünyanın diqqətindən kənarda qalmayıb. İdmana ayrılan diqətin nümunəsidir ki, mötəbər idman yarışları, tədbirlər ölkəmizdə davamlı olaraq təşkil olunub. Əlbəttə ki, müasir dövrümüzdə idman sahəsində gerçəkləşdirilən dövlət siyasəti, Olimpiya ideallarının təbliği, müasir Olimpiya kompleksləri və digər tədbirlər nəticəsində, ölkəmiz mötəbər beynəlxalq idman yarışlarının keçirildiyi məkana çevrilməklə yanaşı, idmançılarımız mötəbər yarışların qalibi olub.

"Bizim bundan sonrakı fəaliyyətimiz təbii ki, idmanın inkişafı ilə bağlı olacaq. Çünki bütün lazımi qərarlar verilib, bütün müvafiq strukturlar, federasiyalar, klublar, idman cəmiyyətləri, Olimpiya Komitəsi, nazirlik vahid strategiya əsasında fəaliyyət göstərirlər. Federasiyalarda gücləndirmə işləri aparılmışdır. Ümid edirəm ki, bizim həm ənənəvi medal gətirən idman növlərində, həm də bu günə qədər o qədər də inkişaf etməyən idman növlərində növbəti irəliləyiş olacaqdır. Uzun illər bütün bölgələrdə idmanla məşğul olmaq üçün dövlət öz fəaliyyətini aparıb. Hazırda bizim bölgələrimizdə 44 Olimpiya İdman Kompleksi fəaliyyət göstərir və bu idman komplekslərinin bundan sonra da inşası nəzərdə tutulur. Müxtəlif bölgələrdə, o cümlədən Qarabağ bölgəsində, Bakı şəhərində ən müasir idman infrastrukturumuz vardır. Biz hələ təxminən 10 il bundan əvvəl Bakıda mötəbər Avropa Oyunlarını keçirmişdik, - deyə Prezident diqqətə çəkib.

Son illərdə Bakıda və bütövlükdə, Azərbaycanda idman infrastrukturunun yaradılması istiqamətində böyük işlər görülüb. Milli Gimnastika Arenası, Su İdmanı Sarayı və Bakı Atıcılıq Mərkəzinin tikintisi böyük investisiya tələb edən müasir idman qurğularıdır. Eyni zamanda, Bakıda idman şəhərciyi fəaliyyət göstərir. Bakı Olimpiya Stadionu, Tofiq Bəhramov adına Respublika Stadionu, Bakı Su İdmanı Sarayı, Bakı İdman Sarayı, "Baku Crystall Hall", Bakı Tennis Akademiyası, Heydər Əliyev adına İdman Arenası, "Bakcell Arena", Bakı Atıcılıq Mərkəzi, Bakı Ekspo Mərkəzi və digər idman kompleksləri müxtəlif növ yarışların keçirilməsinə imkan verir. İndi, nəinki paytaxt Bakıda, demək olar ki, ölkəmizin bütün bölgələrində müasir Olimpiya idman kompleksləri fəaliyyət göstərir.














### "İNDİ AĞDAM ŞƏHƏRİNDƏ YENİ, BÜTÜN BEYNƏLXALQ STANDARTLARA CAVAB VERƏN STADİON İNŞA EDİLİR"

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığı ilə işğaldan azad edilmiş ərazilərimizdə quruculuq işləri böyük sürətlə həyata keçirilir. Artıq həmin ərazilərdə ilk beynəlxalq turnirlər təşkil olunub. Milli Paralimpiya Komitəsi də Qarabağda Paralimpiya hərəkatının inkişaf etdirilməsini qarşıya məqsəd qoyub. Əsas hədəf bütün Azərbaycanın Paralimpiya hərəkatı ilə əhatə etməkdir. Bütün azad edilmiş şəhərlərin Baş planları təsdiq edilib. Bütün bərpa-quruculuq işləri Baş planlar əsasında aparılır. Burada idman obyektlərinin yaradılması nəzərdə tutulur. Bu sırada Xankəndidə "Qarabağ" stadionu, Ağdamın Eyvazxanbəyli kəndində Qarabağ Atçılıq Kompleksinin və s.təməlinin qoyulmasını göstərmək olar. İmarət stadionunun inşa edilməsinin böyük rəmzi mənası olduğunu bildirən Cənab Prezident indi Ağdam şəhərində yeni, bütün beynəlxalq standartlara cavab verən stadion inşa edildiyini bildirib: "Füzuli şəhərində Olimpiya İdman Kompleksinin təməli qoyulub. Suqovuşan və Köndələnçay su anbarlarında artıq beynəlxalq avarçəkmə yarışları keçirilir. Şuşa şəhərində bir neçə idman yarışı keçirilmişdir. Xankəndi şəhərindəki stadion, - hansı ki, Azərbaycan büdcəsi hesabına hələ keçən əsrin 50-ci illərində inşa edilmişdir, - əsaslı şəkildə təmir edilir, demək olar ki, yenidən qurulur. Düz bir il bundan əvvəl Xankəndi stadionunda biz hamımız tarixi futbol yarışını izləmişik. Amma bu stadion da bütün beynəlxalq standartlara cavab verəcək və bu stadionun yenidən qurulması prosesi gələn il başa çatmalıdır. Azad edilmiş ərazilərimizdə digər idman qurğularının tikintisi nəzərdə tutulur və bütün bu işləri biz ardıcıllıqla edəcəyik".

Azərbaycan Prezident ionu da bildirib ki, gələn ildən başlayaraq Gəncə şəhərində çox böyük təmir-bərpa işləri aparılacaq. Dövlətimizin başçısı deyib ki, həm şəhər infrastrukturu yenilənəcək, şəhər nəqliyyatı tamamilə yenilənəcək, tarixi binaların bərpası və digər infrastruktur layihələrimiz icra ediləcək ki, bizim qədim şəhərimiz olan, Nizami yurdu olan Gəncə bütün MDB məkanına və daha geniş coğrafiyaya öz gözəlliyini, eyni zamanda, tarixi simasını və müasirliyini təqdim etsin.

Gənc nəslin fiziki və mənəvi cəhətdən sağlam yetişməsini dövlətimiz daim diqqət mərkəzində saxlayır. Məhz bu diqqət və qayğı Azərbaycanın qarşıdakı illərdə idmanda daha böyük uğurlara imza atacağını deməyə əsas verir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Ukraynada sülh, yoxsa müharibə?

*Rusiya və ABŞ liderləri danışıqlara hazırdırlar*



***ABŞ-ın yeni seçilmiş prezidenti Donald Tramp Rusiya prezidenti Vladimir Putinlə görüşmək və Ukrayna münaqişəsinə son qoymaq yollarını müzakirə etmək niyyətində olduğunu açıqlayıb. Bundan əvvəl Vladimir Putin də Donald Trampla dialoqa hazır olduğunu bildirib. Donald Tramp bəşəriyyəti üçüncü dünya müharibəsindən xilas edən görkəmli siyasi xadim rolunda görünmək niyyətindədir. Öz növbəsində, Vladimir Putin üçün təkcə Ukraynada "xüsusi hərbi əməliyyatı"n layiqincə başa çatmasını təmin etmək deyil, həm də ən aşağı nöqtəyə çatmış ABŞ və Qərblə münasibətlərdə yeni irəliləyişə başlamaq vacibdir.***

Donald Trampın Ukraynadakı münaqişənin həlli üçün Vladimir Putinlə şəxsi görüşə hazır olması barədə bəyanatı Arizona ştatının Feniks şəhərində keçirilən "Turning Point USA" mühafizəkarlar konfransında səsləndirilib. Yanvarın 20-də vəzifəsinin icrasına başladıqdan sonra prioritetlərini sadalayan Donald Tramp seçki kampaniyası zamanı verdiyi əsas vədi yerinə yetirməkdə qərarlı olduğunu bir daha təsdiqləyib - Ukraynadakı münaqişəyə son qoymaq. "Prezident Putin mənimlə tez bir zamanda görüşmək istədiyini söyləyib. Ona görə də biz bunu gözləyəcəyik, bu müharibəni bitirməliyik", - Donald Tramp bildirib. "Ukraynada müharibəyə son qoyacağam. Yaxın Şərqdəki xaosu dayandıracağam. Və söz verirəm ki, üçüncü dünya müharibəsinə imkan verməyəcəyik", - deyə Donald Tramp özünü Bayden administrasiyasının mirası kimi Ukrayna münaqişəsinə son qoyacaq sülhməramlı kimi təqdim edərək hər kəsi inandırıb.

Prezidentlik yarışı zamanı Donald Tramp Ukraynadakı münaqişəni dayandırmaq əzmini dəfələrlə nümayiş etdirib. Buna baxmayaraq, vəzifəsinin icrasına hazırlaşan 47-ci Amerika prezidentinin yeni bəyanatı ilk dəfə olaraq Rusiya və ABŞ liderləri arasında Ukrayna münaqişəsi ilə bağlı dialoqa başlamaq planlarını həyata keçirmək istəyir. Halbuki, prezident Baydenin dövründə bu, tamamilə istisna idi. Donald Tramp 2024-cü ilin yekunlarına dair geniş mətbuat konfransı ilə birlikdə birbaşa xətt zamanı Vladimir Putinin keçən cümə axşamı ona göndərdiyi keçidə cavab verib. "Onunla nə vaxt görüşəcəyimizi bilmirəm, çünki bu barədə heç nə demir. Dörd ildən artıqdır ki, mən onunla ümumiyyətlə danışmıram", - Vladimir Putin Donald Trampla cənab Trampın ilk prezidentlik dövründə başlayan münasibətlərinin tarixini xatırladıb.

Eyni zamanda, o, ABŞ-ın 47-ci prezidenti ilə dialoq aparmağa hazır olduğunu təsdiqləyib və bildirib ki, görüş baş tutsa, iki liderin danışacaqları bir şey olacaq. Bundan əvvəl, noyabrın 7-də Valday Diskussiya Klubunun plenar iclasında çıxışı zamanı Vladimir Putin Donald Trampı yenidən ABŞ prezidenti seçilməsi münasibətilə təbrik edib, ona sui-qəsd cəhdi zamanı davranışını şərh edərək ona hörmətini bildirmişdi. , və həmçinin bildirib ki, ilk olaraq ona zəng etməyi "rüsvayçılıq" hesab etmir.

Donald Trampın son açıqlamasının Vladimir Putinin açıqlamalarından sonra qızğın səsləndiyini nəzərə alan Bloomberg buna xüsusi diqqət yetirir. "Tramp bazar günü çıxışı zamanı Putinin amerikalı siyasətçi ilə görüşməyə hazır olması ilə bağlı şərhini Ukraynada döyüşlərə son qoyacağına dair seçki kampaniyası vədinin bir hissəsi kimi istinad edib", - Bloomberg qeyd edib. Donald Trampın son bəyanatını şərh edən prezident Vladimir Putinin mətbuat katibi Dmitri Peskov bildirib ki, hazırda Rusiya prezidenti ilə ABŞ-ın seçilmiş prezidenti arasında görüşün təşkili üçün heç bir konkret və ilkin şərt yoxdur. Peskov TASS-ın 2025-ci il yanvarın 20-nə planlaşdırılan Donald Trampın andiçmə mərasimindən əvvəl də sammit görüşünün mümkünlüyü ilə bağlı sualını cavablandırıb: "Hələlik real impulslar olmayıb".

Bundan əvvəl Donald Tramp və Vladimir Putin tarixdə dörd dəfə müxtəlif formatlarda - 2017-ci ildə G20 və APEC sammitləri çərçivəsində, 16 iyun 2018-ci ildə Helsinkidə, bir il sonra isə, 29 iyun 2019-cu ildə Yaponiyanın Osaka şəhərində G20 sammitində görüşüblər. Eyni zamanda, Donald Tramp və Vladimir Putin arasında yeganə tamhüquqlu sammit Finlandiyada baş tutub. Həm də diqqətəlayiq haldır ki, onların bütün əvvəlki görüşlərindən sonra dialoqa hazır olduqlarını nümayiş etdirmələrinə baxmayaraq, Moskva ilə Vaşinqton arasında münasibətlərdə böhran daha da pisləşib. ABŞ-da Donald Trampın siyasi əleyhdarları onu "Moskva ilə əlbir olmaqda" ittiham edərək ona qarşı hücumları gücləndiriblər. Öz növbəsində Donald Tramp Rusiyaya qarşı getdikcə daha çox sanksiyalar tətbiq edib və bəyan edib ki, Vladimir Putinlə yaxşı münasibət saxlasa da, heç bir Amerika lideri Moskvaya qarşı onun qədər sərt olmayıb.

Bu baxımdan, ABŞ və Rusiya prezidentlərinin Ukrayna üzrə dialoqa hazır olduqları barədə bəyanatlarından sonra əsas intriqa Donald Trampın ilk prezidentlik dövründə yaranmış vəziyyətdən yayına bilməyəcəyi sualıdır. Daha sonra Moskva ilə dialoqa hazır olduqları barədə səs-küylü bəyanatlar, nəticədə Tramp Rusiya ilə münasibətləri normallaşdırmaq tələbi olmayan həm Demokratlar, həm də Respublikaçılar isteblişmentin təzyiqlərinə boyun əymək məcburiyyətində qaldıqdan sonra əks effekt verdi. Donald Tramp dekabrın əvvəlində Demokrat siyasi rəqiblərinə yaxınlığı ilə tanınan NBC telekanalına seçkidən sonra ilk uzun müsahibəsində rəqiblərinin təzyiqinə boyun əyməmək əzmini bu dəfə nümayiş etdirdi. Çətin sual-cavab sessiyası zamanı Donald Tramp təsdiqlədi ki, o, Ukraynaya maliyyəni "demək olar ki, mütləq" kəsəcək və vəzifəyə başlamazdan əvvəl artıq Ukrayna münaqişəsinə son qoymağa çalışır.

NBC aparıcısının bu barədə Vladimir Putinlə artıq danışıb-danışmadığı sualına cavab verən Donald Tramp əvvəlcə mənfi, sonrakı suala isə "Seçildiyinizdən bəri bir dəfə də danışmamısınızmı?" sualına cavab verib: "Bunu deyəcəyəm: bu yaxınlarda ünsiyyət qurmadıq". Artıq üçüncü suala: "Deməli, seçkilərdən sonra hələ də Vladimir Putinlə danışmısınız?" Donald Tramp təvazökar qalmaq qabiliyyətini nümayiş etdirib: "Bu barədə heç nə demək istəmirəm. Mən danışıqlara mane ola biləcək hər hansı bir iş görmək istəmirəm. İcazə verin, bunun nə ilə bağlı olduğunu izah edim. Bu münaqişədə insanlar görünməmiş sayda ölür. Siz İkinci Dünya Müharibəsi ilə paralel apara bilərsiniz, o zaman nədən danışdığımızı başa düşəcəksiniz", o əlavə edib. Əmin olduğunu bildirib ki, əgər 2022-ci ildə ABŞ-ın prezidenti Co Bayden yox, o olsaydı, genişmiqyaslı və qanlı qarşıdurmanın qarşısını almaq mümkün olardı.

Ağ Evdə hakimiyyət dəyişikliyindən sonra ABŞ və Rusiya liderləri arasında görüşə hazırlıq barədə xəbərlərə reaksiya verən prezident Baydenin milli təhlükəsizlik üzrə müşaviri Ceyk Sallivan Donald Trampın sülh yolu ilə həllə nail olunmasının zəruriliyi ilə bağlı əsas tezisi ilə razılaşıb. Bununla belə, o, Ukrayna sülhü uğrunda mübarizənin əsas alətini Rusiyaya təzyiqi artırmaq adlandırıb. "Düşünürəm ki, Tramp təzyiqi davam etdirməlidir. İnanıram ki, o zaman razılaşma əldə oluna bilər", - Ceyk Sullivan CNN-ə müsahibəsində bildirib. Onun sözlərinə görə, əgər Vaşinqton "Ukraynanın ayaqları altından torpaq çıxararaq" Kiyevi dəstəkləməkdən imtina edərsə və Moskvanın şərtləri ilə razılaşarsa, bu, uzunmüddətli perspektivdə ABŞ-ın maraqlarına ciddi ziyan vuracaq. "Buna görə də mən hesab edirəm ki, Donald Tramp üçün ən vacib şey Putinə mesaj göndərməkdir: siz ədalətli dünya üçün ədalətli şərtləri qəbul etməyincə ABŞ Ukraynanı, Avropa Ukraynanı dəstəkləməyə davam edəcək", - deyə Ceyk Sullivan bildirib.

Bu vəziyyətdə çətin olacağını vəd edən ABŞ-la gələcək dialoq məsələlərində Rusiyanın mövqeyini Rusiya Federasiyası xarici işlər nazirinin müavini Sergey Ryabkov izah edib. Rusiyalı diplomatın TASS agentliyinə verdiyi məlumata görə, Ukrayna məsələlərində ABŞ-la dialoq müxtəlif platformalarda aparıla bilər, amma önəmli olan onun məzmunu və seçilmiş ABŞ prezidentinin komandasının yanaşmalarıdır. "Bu mövzunu müzakirə etmək üçün, ilk növbədə, gələcək ABŞ administrasiyasının bu məsələdə mövqeyinin nə olduğunu başa düşməliyik. Eşitdiklərimiz, bir çox cəhətdən, qəti şəkildə ziddiyyət təşkil edir və bizim yanaşmamıza uyğun ola bilməz. Dialoq müxtəlif platformalarda və müxtəlif formatlarda aparıla bilər. Söhbət bu əlaqə üçün aidiyyəti nümayəndələrin gələ biləcəyi yerin hara olmasında deyil, məsələ məzmundadır. Tramp administrasiyasının bu məsələdə hansı yanaşmalar sərgiləyəcəyi hələ tam bəlli deyil" deyən Sergey Ryabkov Rusiyanın təşəbbüslərinin "həyatdan, reallıqlardan qaynaqlandığını" əlavə edib.

Əsas tərəflərin maraq məsələsidir, o cümlədən təhlükəsizlik maraqları da gündəmdədir. Ona görə də bu xəttdən kənara çıxmaq mümkün deyil. Gələcək danışıqların uğuru üçün Rusiya Donald Trampdan təkcə dialoq yox, həm də onun qanuni maraqlarını nəzərə almaq bacarığını gözləyir.

**V.VƏLİYEV**

## YAP Mərkəzi Aparatı qardaş Türkiyə xalqına başsağlığı verib

Türkiyənin Balıkesir vilayətindəki fabrikdə baş vermiş partlayış nəticəsində insanların həlak olması və yaralanması xəbərini böyük kədər hissi ilə qarşıladıq. Faciədə həyatını itirənlərin ailələrinə, yaxınlarına, qardaş Türkiyə xalqına dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmasını diləyirik.

***Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı***

# Dost dövlətlərindən Azərbaycan Prezidentinə təbriklər!

Son iyirmi bir ildə müasir dövrün qlobal çağırışlarına dəstək verən müstəqil Azərbaycanın yürütdüyü siyasət, ölkəmizin etibarlı və strateji tərəfdaş kimi, nüfuzunu beynəlxalq aləmdə yüksəldib və dünya birliyinin ayrılmaz hissəsinə çevirib. Müstəqil dövlətimizdə əldə olunan uğurlar, dinamik inkişaf, eləcə də, beynəlxalq səviyyədə qurduğu münasibətlər və s. əldə olunan nailiyyətlərdir. Müasir dövrün qlobal çağırışlarına dəstək verən Azərbaycan dünya dövlətləri və beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlıq imkanlarına malikdir. Müstəqil Azərbaycanın yürütdüyü siyasət ölkəmizin etibarlı və strateji tərəfdaş kimi nüfuzunu beynəlxalq aləmdə yüksəldib və dünya birliyinin ayrılmaz hissəsinə çevirib. Bu gün Azərbaycan öz QÜDRƏTLİ LİDERİNİN uzaqgörən, qətiyyətli siyasəti ilə regionda yaranmış yeni reallıqlar fonunda daha möhtəşəm layihələrlə, islahatlarla gələcəyə doğru irəliləyir. Azərbaycana dost və qardaş olan olan ölkələr ölkəmizin bu uğurlarına sevinirlər.

Azərbaycana bu nailiyyətləri bəxş edən, onun dünya miqyasında imicini daha da yüksəldən dövlət başçımız İlham Əliyevə 24 dekabr doğum günü münasibəti ilə gələn dost təbrikləri Prezidentimizin beynəlxalq aləmdəki nüfuzunun təzahürüdür. Təbriklərdə ölkəmizin daha da inkişaf etdirilməsi və xalqımızın rifahı naminə dövlət başçımız İlham Əliyevə prezidentlik fəaliyyətində ona yeni-yeni uğurlar arzulayıblar.

### DOSTLUQ VƏ QARDAŞLIQ MÜNASİBƏTLƏRİNİN DAHA BİR NÜMUNƏSİ

Dekabrın 24-də Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Şavkat Mirziyoyev dövlətimizin başçısını ad günü münasibətilə təbrik edib, ona prezidentlik fəaliyyətində yeni uğurlar və möhkəm cansağlığı arzulayıb. Telefon söhbəti zamanı yüksək səviyyədə qarşılıqlı səfərlərin və mütəmadi təmasların ikitərəfli münasibətlərin inkişafına verdiyi töhfə qeyd edilib, Prezident İlham Əliyevin bu il Özbəkistana dövlət səfərinin əməkdaşlığımızın daha da gücləndirilməsi işində xüsusi rol oynadığı vurğulanıb. Həmin səfər zamanı imzalanmış müttəfiqlik münasibətləri haqqında Müqavilə ikitərəfli münasibətlərimizin ən yüksək zirvəsini nümayiş etdirib.

Özbəkistan Prezidenti COP29-un Azərbaycanda yüksək səviyyədə keçirilməsi ilə bağlı Prezident İlham Əliyevə bir daha təbriklərini çatdırıb və bu mühüm tədbiri ölkəmizin beynəlxalq nüfuzunun möhkəmlənməsinin nümayişi kimi qiymətləndirib. Prezidentlər ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə bundan sonra da uğurla inkişaf edəcəyinə əminliklərini bildirib, əməkdaşlığımızın perspektivləri, gələcək təmaslar və qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparıblar.

Əlbəttə ki, Prezident İlham Əliyevin dünyada gedən geosiyasi və geoiqtisadi proseslərə müdrik liderə məxsus böyük uzaqgörənliklə yanaşması apardığı siyasətin əsas cəhətlərindən biridir. Azərbaycan Prezidenti təcrübəli siyasətçi kimi ümummilli və qlobal məsələləri böyük peşəkarlıqla həll edir, hadisə və proseslərin axarını əvvəlcədən müəyyənləşdirərək gələcəyin tarixini yaradır, parlaq zəkası, iti mühakimə qabiliyyəti, möhkəm xarakteri və mürəkkəb situasiyalarda düzgün seçim etməsi ilə dünyanın tanınmış dövlət xadimləri içərisində xüsusi yer tutur. Prezident İlham Əliyev xalqımızın həyatında böyük dəyişikliklər yaradan tarixi vəzifələrin həyata keçirilməsi yükünü və məsuliyyətini daşıyaraq milli maraqları ifadə edən siyasət həyata keçirir. Azərbaycan Prezidenti sübut edir ki, liderin malik olduğu nüfuz özündə şəxsi keyfiyyətlərin, siyasi dəyərlərin və prinsiplərin vəhdətini birləşdirir.

### AZƏRBAYCAN DÜNYA ARENASINDA MÖVQEYİNİ MÖHKƏMLƏNDİRİR



Azərbaycanla Rusiya arasında münasibətlər və əlaqələr də uzun bir tarixi dövrü, yüzillikləri əhatə edir. Bu iki ölkəni, Azərbaycan və rus xalqını təkcə sərhədlər deyil, həm də tarixi, siyasi, mədəni, sosial bağlar bir-birinə bağlayır, birləşdirir. Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Prezident İlham Əliyevə doğum günü münasibətilə ünvanladığı təbrikində Onun rəhbərliyi ilə dost Azərbaycanın sosial-iqtisadi inkişaf yolu ilə inamla addımladığın, dünya arenasında öz mövqeyini möhkəmləndirdiyni bildirib: "Dövlətlərimiz arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətlərinin qurulmasına və möhkəmləndirilməsinə şəxsi töhfənizi olduqca yüksək qiymətləndirirəm. Mehriban yoldaşlıq əlaqələrimizi çox dəyərləndirirəm. Əlbəttə, ikitərəfli və beynəlxalq gündəliyin aktual məsələləri ilə bağlı birgə sıx işimizin davam etdirilməsinə şad olaram. Hörmətli İlham Heydər oğlu, Sizə ürəkdən möhkəm cansağlığı, xoşbəxtlik və firavanlıq arzulayıram", - fikirləri təbrikdə yer alıb.

Bu gün, məhz uğurlu iqtisadi inkişaf strategiyasının nəticəsidir ki, Azərbaycan modeli dünyada tanınır və qəbul edilir. Bütün bu və ya digər amillər müstəqillik dövründə Azərbaycanın əldə etdiyi nailiyyətlər - tarixi gerçəklikləridir. Müasir Azərbaycanda nəhəng enerji layihələri, ölkənin hər yerində abadlaşma, müasirləşmə, ölkənin dünyada tanınması və milli maraqlara xidmət edən çoxsaylı tədbirlər gerçəkləşib. Həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində, Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib. Ölkəmizin BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə qəbul olunması onun dünya miqyasında artan nüfuzundan və uğurlu xarici siyasətindən xəbər vermiş oldu. Dünyanın 155 ölkəsi Azərbaycana səs verdi. Əlbəttə, xalqımız görülən işləri, əldə olunan nailiyyətləri hər zaman dəyərləndirir və ən yüksək səviyyədə qiymətləndirir.

### BEYNƏLXALQ SÜLH, SABİTLİK VƏ ƏMİN-AMANLIĞIN TƏMİNATINA CİDDİ TÖHFƏ

Bu gün türk dövlətlərinin birliyi beynəlxalq aləmdə ciddi güc mərkəzi kimi qəbul olunur. Qardaş ölkələrin birgə fəaliyyəti, qəbul etdikləri qərarlar qlobal iqtisadi-siyasi proseslərə təsir edir, digər dövlətlər, təşkilatlar türk dövlətləri ilə əməkdaşlığa böyük maraq göstərirlər. Türk dünyası xalqlarının bir-biri ilə tarixi bağlılığına söykənən əlaqələrinin möhkəmləndirilməsi və genişləndirilməsində tədbirlər həyata keçirilir. Bu gün TDT dünya ölkələri tərəfindən mötəbər qurum kimi tanınır və üzv dövlətlərin sıx əməkdaşlığı, birgə səyləri ilə təşkilatın nüfuzu gündən-günə artmaqdadır. Ölkəmiz üzv dövlətlərlə həm təşkilat daxilində, həm də ikitərəfli çərçivədə sıx münasibətlərə malikdir. Belə ki, TDT-yə üzv ölkələr arasında yaxın dostluq və qardaşlıq əlaqələrinin olması, onların bir-birini qarşılıqlı şəkildə dəstəkləməsi təşkilatın inkişaf perspektivlərini şərtləndirən əsas amillərdən biridir. Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyevin Azərbaycan Prezidentinə ünvanladığı təbrikdə qeyd olunur ki, Azərbaycan Respublikası İlham Əliyevin liderliyi və müdrik siyasəti sayəsində dünyadakı nüfuzunu daha da möhkəmləndirmiş, beynəlxalq sülh, sabitlik və əmin-amanlığın təminatına ciddi töhfə verməklə regional siyasətin formalaşdırılmasında mühüm rol oynayan dövlətə çevrilmişdir: "Bu yaxınlarda Bişkek şəhərində keçirilmiş Türk Dövlətləri Təşkilatının 11-ci Zirvə Görüşü zamanı Sizinlə görüşümüzü böyük məmnuniyyətlə xatırlayıram. Fürsətdən istifadə edərək Azərbaycan Respublikasının Türk Dövlətləri Təşkilatının daha da gücləndirilməsində mühüm rol oynadığını vurğulayır, təşkilatın inkişafı məqsədilə göstərdiyiniz hərtərəfli dəstəyə və təşəbbüslərinizə görə Sizə bir daha dərin təşəkkürümü bildirirəm.

Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, Azərbaycan xalqının rifahı naminə fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram".

### TÜRK XALQLARI ARASINDA MƏDƏNİ İNTEQRASİYA VƏ HƏMRƏYLİK

TÜRKSOY-un Baş katibi Sultan Raev Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının - TÜRKSOY-un Baş Katibliyi, üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurası adından və şəxsən öz adından Azərbaycan Prezidenti İlham Əliyevə doğum günü münasibətilə səmimi təbriklərini çatdırıb: "Türk dünyasının aparıcı ölkələrindən biri olan qardaş Azərbaycanın zəngin mədəni irsinin TÜRKSOY təşkilatı vasitəsilə dünyada tanıdılması istiqamətində aparılan işlərə verdiyiniz daimi dəstək bizi daha da ruhlandırır. Əmin ola bilərsiniz ki, Azərbaycan və TÜRKSOY arasında mövcud olan mədəni əməkdaşlıq yüksələn xətt üzrə inkişaf edəcək, üzv ölkələrimizdə və dünyanın müxtəlif ölkələrində həyata keçirəcəyimiz tədbirlərlə Türk xalqları arasında mədəni inteqrasiyanın və həmrəyliyin daha da genişləndirilməsinə öz töhfəsini verəcəkdir."

### "MULTİKULTURALİZM QƏBUL EDİLMƏLİ OLAN BİR NEMƏTDİR"

Daha bir təbrik İsrail Dövlətinin Prezidenti İsxak Hersoqdan Azərbaycan Prezidenti İlham Əliyevə ünvanlanıb. "Azərbaycan Sizin rəhbərliyinizlə iqtisadi inkişafın, firavanlığın, sülhün və sabitliyin hökm sürdüyü dinamik inkişaf edən dövlətə çevrilib. Bunun, əlbəttə ki, ən gözəl təcəssümü ölkənizin nümunəvi dini tolerantlıq və anlayış modelidir. Xüsusilə antisemitizmin bütün dünyaya yayıldığı bu dövrdə Azərbaycan birlikdə harmoniyada yaşamaq üçün kollektiv potensialın parlaq nümunəsidir. Bununla da Siz atanız, möhtərəm Heydər Əliyevin əziz xatirəsini uca tutaraq bütün sahələrdə olduğu kimi, onun sülh yolunu da davam etdirirsiniz", - deyə təbrikində bildirən İsxak Hersoq Azərbaycan Prezidentinin "multikulturalizm qəbul edilməli olan bir nemətdir", - fikrini xatırladaraq dövlət başçımızın bu səmimi münasibətini birbaşa hiss edən Azərbaycanın yəhudi icmasının xalqlarımızı daha möhkəm birləşdirən canlı körpü rolunu oynadığını qeyd edib: "Sizin ölkənizlə strateji tərəfdaşlığımız həm İsrail, həm də daha geniş regionumuz üçün sabitliyi təmin edir. Biz bir çox sahələrdə əməkdaşlığımızı inkişaf etdirmək və möhkəmləndirmək üçün Sizinlə işləməyə davam etmək fürsətinə görə dərin minnətdarlığımızı bildiririk. Gözəl ölkənizə səfərimiz zamanı Sizin və birinci xanım Mehriban Əliyevanın məni və xanım Mixalı səmimi və xoş qarşılamağınızı həmişə xatırlayır və bunu yüksək qiymətləndiririk. Ümid edirəm ki, yaxın gələcəkdə həm Sizi, həm də birinci xanım Mehriban Əliyevanı İsraildə qarşılamaq şərəfinə nail olacağam. Əlbəttə, mən də Sizi növbəti dəfə Davosda keçiriləcək Dünya İqtisadi Forumunda görməyi səbirsizliklə gözləyirəm. Bu xoş fürsətdən istifadə edərək, Sizi keçən ay COP29-a uğurla ev sahibliyi etməyiniz münasibətilə təbrik etmək istərdim. Azərbaycan millətlər birliyində liderdir və bu, gələcək nəsillərin sağlamlığının, təhlükəsizliyinin təmin edilməsinə sadiq olduğunuzun növbəti təzahürüdür".

Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev, İordaniyanın Kralı II Abdullah ibn Al Hüseyn və başqalarını təbrikində Prezident İlham Əliyevin yorulmaz səyləri və uzaqgörən siyasəti sayəsində Azərbaycanın sosial sabitliyin, iqtisadi davamlılığın və beynəlxalq nüfuzun möhkəmləndirilməsində heyrətamiz uğurlar əldə olunduğu diqqətə çəkilir. Bolqarıstan Respublikasının Prezidenti Rumen Radevin təbrikində bildirilir: "Fürsətdən istifadə edərək bir daha əmin olduğumu bildirirəm ki, ölkələrimiz arasındakı çox gözəl praqmatik və səmərəli əməkdaşlıq, həmçinin mövcud olan strateji tərəfdaşlıq münasibətləri gələcəkdə daha fəal şəkildə inkişaf edəcəkdir. Bolqarıstan ilə Azərbaycanın səmərəli ikitərəfli təmasları və yüksək səviyyədə fəal siyasi dialoqu genişləndirmək, inkişaf etdirmək istəyi, həmçinin hər iki ölkənin buna hazır olması il ərzində həm ikitərəfli, həm də COP29 kimi mühüm beynəlxalq formatlar çərçivəsində Sizinlə keçirilmiş görüşlər və danışıqlar zamanı dəfələrlə nümayiş etdirilib. Sizin şəxsi töhfəniz və iştirakınız, şübhəsiz ki, bütün bu məsələlərdə böyük rol oynayıb. Mən ölkələrimiz arasında olan ən yüksək siyasi, dövlət səviyyəsində dialoqu 2025-ci ildə də davam etdirməyə hazıram".

Azərbaycan Prezidenti İlham Əliyevə doğum günü münasibəti ilə ünvanlanan təbriklər kifayət qədərdir. Hər təbrikdə dövlət başçımızın rəhbərliyi ilə Azərbaycanın inkişafı və daha da yüksəldilməsi məqsədi ilə reallaşan işlər, həyata keçirdiyi təbriklər, dünya dövlətləri ilə qurduğu qarşılıqlı anlaşma əsasındakı dost münasibətləri öz ifadəsini tapıb.

***Zümrüd BAYRAMOVA***

# "Prezidentin sərəncamında hökumətə tapşırıq verilir ki..."



**"Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında verdiyi Sərəncam sosial islahatlar sahəsində aparılan işlərin növbəti davamıdır və dərin islahatların həyata keçirilməsinin artıq 5-ci mərhələsinin startı deməkdir". Bu sözləri SİA-ya açıqlamasında deputat Musa Quliyev deyib.**



vətəndaşlarımızın əməkhaqqına öz müsbət təsirini göstərəcəkdir. İstər dövlət büdcəsi ilə maliyyələşən təşkilatlarda, istərsə də özəl sektorda cənab Prezidentin verdiyi sərəncama uyğun olaraq vahid tarif cədvəli üzrə maaş alan hər kəsin əməkhaqqı artırılacaqdır. Təxminən 700 min vətəndaş, onun 400 mini özəl sektordur, 300 mini isə büdcə sektorunda çalışan vətəndaşlarımızın maaşı artacaqdır. Eyni zamanda Prezidentin sərəncamında göstərilir ki, fevral ayının 1-dən minimum pensiyalar da artırılacaq, 320 manat pensiyanın minimum məbləği təşkil ediləcəkdir. Bu da cari pensiyadan 40 manat və yaxud 14 faiz çoxdur. Bu da kifayət qədər ciddi artımdır və təxminən bizim minimum pensiya alanlarımız eyni zamanda üstünə gəlsək ki, gələn il pensiyaların sığorta hissəsi də artacaq və deməli bütün pensiyaçılar gələn il öz pensiyalarında artımı görəcəklər.

Prezidentin sərəncamında hökumətə tapşırıq verilir ki, 3 ay müddətində təqaüd və müavinətlərin də artırılması ilə bağlı təkliflərini versinlər. Yəqin ki gələn il biz bəzi növ təqaüd və Prezident təqaüdləri və müavinətlərin də artımının şahidi olacağıq.

Bütövlükdə bu artımlar 3 milyona yaxın vətəndaşımızı əhatə edəcək və dövlət büd-




Musa Quliyev sözlərinə belə davam edib: "İndiyə qədər 2018-ci ildən başlayaraq cənab Prezidentin fərman və sərəncamları ilə 4 böyük sosial islahatlar zərfi qəbul olunub və Prezidentin 23 dekabr tarixində verdiyi sərəncamla artıq 5-ci sosial islahatlar paketi qəbul olunacaq. Bu sərəncama görə gələn il yanvarın 1-dən minimum əməkhaqqı 400 manata çatdırılır ki, bu da cari ildəki minimum əməkhaqqından 55 manat və yaxud 16 faiz çoxdur.

Bunu da demək lazımdır ki, minimum əməkhaqqının artırılması bütün kateqoriya cəsindən əlavə olaraq 1,4 milyard manat vəsait sərf olunacaq. Bu kifayət qədər böyük məbləğdir və əminliklə deyə bilərik ki artıq bu sərəncamla Prezident 5-ci dərin sosial islahatlara start vermiş oldu. Əlbəttə, bu sərəncamların böyük əhəmiyyəti həm də ondan ibarətdir ki, gələn il pensiya, əməkhaqqı, təqaüd və müavinətlərdəki olan artımlar faiz etibarilə inflyasiyanı iki, üç dəfə üstələyəcək. Bu da vətəndaşlarımızın sosial rifahının qorunmasına və yaxşılaşmasına xidmət edəcək".

***Ayşən Vəli***



MƏTLƏB
Metlebsalahov@mail.ru

# Repetitor "biznesi" məktəbi və təhsili çökdürür...

## Bu gün əlavə ödənişli məşğələlər məktəblərdə dövlətin tədris proqramını lazımsız vaxt itkisinə çevirib

***Məktəblərimizdən danışacağıq. Müasir, ən yüksək infrastruktura malik məktəb binalarımız, işıqlı otaqlarımız var. İnsaf üçün bu məsələdə irəliləyiş yüksəkdir. Düzdür, bunu bütün ucqar rayonların hamısına da şamil etmək çətin məsələdir. Elə ucqar kənd məktəblərimiz var ki, hələ də ötən əsrdə sovetin vurduğu tünd qırmızı rəngli taxta döşəmələrdə, "Nikolayın qoyub getdiyi taxta qapılarda" dərslər keçirilir. Amma ümumi götürdükdə məktəb tikintisində, müasir sinif otaqlarının yaradılmasında mühüm işlər görülüb.***

Lakin məsələ bər-bəzəkdə deyil, təhsilin keyfiyyətindədir. Hə, gəldik əsas məsələyə. Son illər tez-tez orta məktəblərdəki tədris proqramının zəifliyi, repetitor xidmətinin dövlət tədris proqramını üstələməsi, müəllimlərin daha çox ödənişli məşğələlərdə şagirdlərlə məşğul olmağa maraq göstərmələri barədə şikayət və iddialar mətbuatı və sosial şəbəkələri başına götürüb gedir. Bu məsələyə görə müəllimləri "asıb-kəsənlər", məktəblərdə təhsili inkişaf etdirmək əvəzinə fironluq edən məktəb direktorlarını haqlı olaraq tənqid edənlər yetərincədir. Hər kəs məktəblərdəki hazırkı xaos dolu qeyri-müəyyənlikdən, valideynləri maddi sıxıntılara salan əlavə ödənişli məşğələlərdən dad çəkir.

Bəs reallıq necədir, niyə müəllimlər sinifdə dərs dedikləri uşaqlara bilik və bacarıqlarını həmin dərs saatlarında deyil, dövlətin tədris proqramından sonrakı ödənişli məşğələlərdə öyrədirlər? Buna nə ad vermək olar - müəllimlərin maddi marağı, maaş azlığı, daha çox qazanmaq hərisliyi, yoxsa məktəb direktorlarının bilərəkdən yaratdıqları repetitor biznesi? Məktəbdəki 1-ci sinif şagirdindən başlamış yuxarı siniflərə qədər hər fənn üçün şagirdlərdən aylıq azı 80-100 manat arası qazanan müəllim bu qazancı tək yeyə bilməz axı...

Hər nədirsə bircə həqiqət odur ki, məktəblərdə təhsil sürətlə aşağı düşməkdə, nizam-intizam axsamaqda, repetitor biznesi isə "çiçəklənməkdədir". Vəziyyət o həddə çatıb ki, pedaqoji idarəçilik, xüsusilə nizam-intizam boşluğu üzündən şagird azğınlaşır, müəllim sinifdə təhqir olunur, məktəblilər bir-birini alçaldan hərəkətlər edib sosial şəbəkələrdə yayırlar. Hanı məktəblərdə İDARƏÇİLİK? İdarəçilik nə gəzir. Əvəzində pedaqoji işdən xəbəri olmayan məktəb direktorları təhsil əvəzinə fironluqla məşğuldurlar.

Əlbəttə, dövr dəyişir, tələb və tələbatlar da yenilənir, eləcə də tədris proqramındakı proseslər də bu sıradadır. Amma dəyişilməsi mümkünsüz olan tək məsələ - məktəblərdəki ciddi tədris proqramının vacibliyi, şagirdlərin əsaslı biliklə təmin olunmasıdır. Təhsil, bilik təminatı bir ölkə üçün, böyük bir xalqın gələcəyi üçün vacibdən vacib məsələdir. Amma min dəfə təəssüf olsun ki, son illər məktəblərimizdə nizam intizamla yanaşı təhsil keyfiyyəti də dərənin dibinə yuvarlanıb.

Haqlı olaraq sual ortaya çıxır - niyə ölkəmizdə təhsil tam ödənişsiz olduğu halda, valideynlərin şəxsi büdcəsi hesabına şagirdlər hətta 1-ci sinifdən başlayaraq ödənişli repetitor xidmətinə üz tutmalıdırlar? Nəyə görə, məktəblər də buna şərait yaradaraq öz reputasiyalarını aşağı düşürməlidirlər? Sual aydındır, cavab isə qaranlıqlarla dolu cəncəl məsələlərdən keçir. Əlbəttə, hər bir valideyn öz övladının universitetə qəbul olunmasını arzulayır və hər bir şagird də universitet həyatına atılmağı səbirsizliklə gözləyir. Yuxarıda da qeyd etdiyimiz kimi, dərd orasındadır ki, şagird daha çox məktəbdə ona dərs deyən müəllimlərin repetitor xidmətindən istifadə edir.

Müəllim dövlətin tədris saatında şagirdə öyrətməli olduqlarını əlavə məşğələyə saxlayır. Çünki bunda maddi maraqları var. Yuxarıda qeyd etdiyimiz kimi, həm daha çox qazanmaq, həm əlavə məşğələni açıq biznes işinə çevirmək, həm də dövlətin ayırdığı əmək haqqı ilə dolana bilməmək -EHTİYAC! Əlbəttə, müəllimin maddi təminatı o dərəcədə yüksək olmalıdır ki, o şagirdinin cibinə deyil, başındakı biliyə boylansın. Müəllimin maddi təminatı həm də məktəbin, təhsilin yüksək nüfuzunun təminatıdır. Amma gərək müəllimin də maddi gəlirdən başqa, müəllimlik adını uca tutması, mənəvi dəyərlərə sahib olması, bir xalqın gələcəyinin ona etibar edildiyi barədə məsuliyyəti olmalıdır. Axı hər şey qarından və puldan ibarət ola bilməz...

İndikilər bilməz, biz ötən əsrin 80-90-cı illərində orta məktəbdə oxuyarkən müəllimlərimizə ilahi varlıq kimi baxardıq. Geyim mədəniyyəti, danışıq qabiliyyəti, şagirdlə davranış qaydaları- bütün bunlar o zamankı müəllim kontingentini müsbət mənada fərqləndirirdi. Amma ən əsası məktəbdəki müəllim dərs dediyi şagirdlə elə bir güclü bağ yaradırdı ki, insan bir ömür o gözəl pedaqoqları yaddaşında əbədi saxlayırdı..

Düzdür, indi də fəxr ediləsi müəllimlərimiz kifayət qədərdir, lakin məktəblərdəki hazırkı ab-hava bu nikbinliyimiz üçün böyük təhlükə yaradır. Axı hər kəs, ilk növbədə müəllimlərin özləri yaxşı bilirlər ki, müasir tədris metodikalarının tətbiqi ilə şagirdlərin marağını artırmaq və dərsləri daha effektiv etmək mümkündür. Dərslik və proqramları yeniləyərək sadə, başadüşülən və praktiki etmək, çox yüklü materialları azaltmaq bu gün vacibdən vacibdir. Təhsil proqramı şagirdlərin bacarıqlarına və inkişaf səviyyəsinə uyğunlaşdırılmalıdır. Fərdi yanaşma ilə müəllimlər zəif şagirdlərə əlavə dəstək göstərməlidirlər. Siniflərdə fərdi yanaşma metodlarından istifadə etməklə hər şagirdin ehtiyacları nəzərə alınmalıdır. Xüsusilə bu son qeyd etdiklərimiz şagirdləri məktəbə daha çox bağlayar, məktəbin bilik məbədi kimi nüfuz qazanmasına təkan verər.

Kəsəsi, müəllim zəif oxuyan şagirdinə dəstək olmalı, əsl pedaqoq kimi ona əlavə vaxt ayırmaqla xüsusi yanaşma göstərməlidir. Müəllimlik peşəsini hər şeydən uca tutan, bu müqəddəs sənətə ləyaqətlə yanaşan pedaqoqlar bu gün ölkəmiz üçün əsl sərvət sayılmalıdır. Çünki məhz onlar Azərbaycanın işıqlı sabahı üçün dəyərli insanlar - sabahın ləyaqətli vətəndaşlarını yetişdirirlər.

Məncə artıq Təhsil Nazirliyi məktəblərdəki tədris və idarəçilik məsələlərinə ağırlığını qoymalı, həm məktəbi, həm müəllim nüfuzunu, həm də repetitor ödənişlərindən belə ikiqat bükülmüş, sosial problemlərin məngənəsində sıxılan valideynləri XİLAS etməlidir. Çünki sabah çox, həm də çox gec olacaq, cənablar!

# Dəbin sonu, xəstəliyin başlanğıcı - anoreksiya

## Arıqlığın gözəllik etalonu kimi təbliğ edilməsi qızları öldürür



***Siz də fərqindəsinizmi, bütün televiziyalarda, qadın proqramlarında, reklam çarxlarında, küçələrdəki reklam şitlərində, internet saytlarında arıqlamaq üçün min bir resept təklif edilir. Qadınların əksəriyyəti arıqlamaq arzusundadır və əksəriyyəti bunun üçün dəridən-qabıqdan çıxır. Həm də arıqlamaq istəyənlərin heç də hamısı normadan kök olanlar deyil, 55-60 kilo çəkisi olan da arıqlamaq istəyir, 80-90 kilo olanlar da. Çox vaxt bu istək anoreksiya ilə nəticələnir - əsrimizin ən böyük problemlərindən biri ilə.***

### Arıqlamaq eşqi ölüm gətirir

İnsanın qəsdən qidalanmanı azaltması və ya qidadan tamamilə imtina etməsi, özünü zorla qusduraraq mədəsindəki qidadan qurtulmağı və bütün bunlara görə sürətlə zəifləməsi və arıqlaması anoreksiya adlanır. Həkim Mehman Qurbanov deyir ki, anoreksiyalı insanlar ürək bulanması, mədə ağrısı, qəbzlikdən də şikayət edirlər. Onlar xəstəlik səbəbindən cinsi əlaqədə ola bilmirlər, uzun müddət bu tələbatlarını ödəmədikləri üçün isə psixoloji problemlər yaşayırlar.

Həkim deyir ki, müasir tibbdə anoreksiyanı bir növ ruhi xəstəlik kimi də qiymətləndirirlər: "Cəmiyyətdə anoreksiyaya meyilli olduqca çox insan var. Əsasən, qadınların və yeniyetmə qızların arzusu olan arıqlıq anoreksiya həddinə keçəndə orqanizm üçün olduqca çox təhlükə yaranır. Hər gün arıqlayan, çəkisindən itirən bu insanlar özlərini hələ də kök hesab edərək qidalanmanı minimuma endirir, bəzən yeyir amma dərhal özünü yediyini qaytarmağa məcbur edir, bəzi hallarda ümumiyyətlə yeməkdən imtina edirlər. Arıqlamağa normal pəhriz proqramları ilə başlayan anoreksiya xəstələri sonralar bu proqramları ən kəskin formada tətbiq edərək bütün qidalanma prosesini dayandırır, yalnız gündəlik lazım olan zülal və mineralları, o cümlədən karbohidratı həb formasında qəbul edir. Getdikcə itirilən çəkilər insanı yeriyən skelet formasına salır".





### Canlı skeletlər həyatdan küsür

Zamanla itirilən çəki elə həddə çatır ki, insan sümüklərinin üzərində nazik dəri ilə qalır, piy qatı və əzələlər yox olur. 1.60 sm boyu olan gənc qız 20-25 kiloyadək arıqlayır. Yeriməkdə, nəfəs almaqda problemlər yaşayan bu insanlar evə məhkum olurlar. Getdikcə yeməyə nifrət hissi gücsüzlüklə əvəz olur, əvvəllər yemək istəməməsi və özünü şüurlu şəkildə arıqlatması ölümə belə səbəb ola bilir.

Anoreksiyalı insanlar getdikcə içinə qapanır, aqressiv və kobud olur, sosial həyatı olmur. Əvvəllər arıqlığından zövq alan bu insanlar sonralar öz bədəninə baxdıqca narahat olmağa başlayır, amma artıq psixoloji cəhətdən anoreksiya onun damarlarına işləyib, yeməyə qarşı aqressiya yaradıb. Özündəki problemin fərqində olan bəzi anoreksiyalı insanlar doğmalarını çox yedirməkdə maraqlı olurlar.

### Anoreksiya necə yaranır?

Əslində həkimlər deyir ki, anoreksiya sadəcə yemək və çəki ilə bağlı problem olmaqla bərabər həyat tərzi, qəzəb, narahatlıq hisslərinin bütünləşərək təzahür etməsidir. Şəxsi həyatını öz nəzarətində saxlamaq istəyi insanların anodeksiya xəstəliyinə tutulmasına təkan verir.

Psixoloq Məlahət Həsənzadə deyir ki, aparılan ən son araşdırmalara görə, anoreksiya xəstəliyinin yaranmasında genetik və hormonal faktorlar da önəmli rola malikdir: "Amerikada həddsiz piylənmə faizi bu ölkənin səhiyyə qurumunu ölkənin arıq olan çox az qismini ideal bədən quruluşu olan qisim kimi təqdim etməyə məcbur edir. Buna görə də yeniyetmə nəsil örnək göstərilən qismə oxşamağa çalışır, yeməyi dayandırır, artıq çəkidən qorxur. Dünya ölkələrinin demək olar ki əksəriyyətində arıqlığı ideal quruluş kimi göstərən telekanallar insanları anoreksiyaya təhrik edir".

Bundan əlavə, anoreksiyası olan insan onu narahat edən, başqalarından fərqləndirən fiziki görünüşünə görə özünə nifrət edir. Yemək istəyir, amma psixoloji problemlər imkan vermir, kökəlmək istəsə də bu mümkün olmur. Buna görə də evə qapanır, ətrafı ilə bütün münasibətini kəsir.

Psixoloq deyir ki, anoreksiyası olmayan yeniyetmə sosial çevrəsini dəyişdikdə, ilk məhəbbəti uğursuz olduqda, məktəbdə yoldaşları ilə yola getmədikdə, zorakılığa məruz qaldıqda da yeməkdən imtina edərək çəkisini itirməyə başlayır və beləliklə, anoreksiyanın ilk toxumları səpilmiş olur.

Ailədə anoreksiya xəstəsi olan biri varsa, bu, ailənin digər üzvlərinə də təsir edir. Əgər ana anoreksiya xəstəsidirsə və bunu xəstəlik yox normal qəbul edirsə, hər gün tərəziyə çıxıb artdığı qramları görəndə dəhşətə gəlirsə o evdə böyüyən yeniyetmə də bunu normal hesab edəcək, yeməkdən imtina edərək anasına bənzəməyə çalışacaq.

### Bu da əlamətləri

Anoreksiya xəstələri ən birinci boy və yaş əmsalına görə qəbul edilmiş ideal çəkini qəbul etmir, onlar üçün ideal bədən forması minimum arıqlıqdır. Qadınlar anoreksiya xəstəsi olduğu andan etibarən aybaşı pozğunluqları yaşayır, kişilərdə isə cinsi hormonlar yox olur, hər iki cinsdə cinsi istəksizlik yaranır. Anoreksiyalı insanlar çəki azlığının yarada biləcəyi xəstəlikləri qətiyyətlə inkar edir, yeməkdən imtina edir, heç vaxt aclıq hiss etmədiyini deyir.



Anoreksiya təhlükəsi olan insanların əl və ayaqları həmişə soyuq olur, tez-tez xəstələnir. Bədənində və üzündə tüklənmə çoxalır, soyuğa dözümü olmur. Baş dərisi nazildiyi üçün saçları tökülür. Dərisi quruyaraq çatlayır. Yemək istəmir, amma məcbur yedirildikdə özünü qaytarmağa məcbur edir. Yemək yeməyə məcbur olanda isə ishal yaradan dərman içir ki, yediyi həzmə getmədən bədəndən xaric olsun.

Bundan əlavə, anoreksiya xəstələrini pəhriz dərmanları qəbul etməsindən də tanımaq olar. Bu insanlar arıq olduqları halda idmandan əl çəkmirlər. Yemək yeməyə məcbur olduqları zamanlar yedikləri tərəzidə çəkir, kalorisini hesablayır. Bu insanlar arıqlığın son həddində olduqları halda özünü hələ də kök hesab edir. Bədənini başqaları görüb ona baxmasınlar deyə gen-bol geyimlər geyinir. Gün ərzində özünü dəfələrlə tərəzidə çəkir.

Həmişə az yeməkdən və çəki problemindən danışır, ətrafdakılara piylənmənin zərərini başa salmağa çalışır, həkimlərin ifrat arıqlığın zərəri barədə xəbərdarlıqlarına məhəl qoymur. Yerişi belə dəyişən anoreksiya xəstələri başqaları yemək yeyəndə də qusmaq istəyir. Həmişə qəzəbli və özünəqapalıdır.

Anoresiyalı insanlar əslində hər zaman acdır və bunu hiss edirlər. Amma aclıq hissi onlara öz həyatlarını və bədənlərini idarə edə bilmək duğusu aşılayır. Bu da bir məqamda yaxşı olduqlarını - yəni çəki ata bilmək bacarıqlarını onlara sevdirir. Anoreksiyası olan insanlar bu hiss səbəbindən ölümə belə yol alça bilirlər.

### Hər 100 nəfərdən 20-si...

Anoreksiya poblemi adətən 16-18 yaşlarda meydana çıxır. Dünyada bu yaş aralığında olan hər 100 nəfərdən birinin anoreksiya xəstəliyi var və bu xəstəlik daha çox qadınlar arasında yayılır. Kişilərin ərgənlik dönəmində qəbul etdiyi standartlar qızlardan fərqli olduğu üçün onlar anoreksiyaya tutulmurlar, əksinə yaxşı qidalanıb yaxşı idman edərək əzələ formalaşdırırlar. Anoreksiya xəstəsi kimi qeydə alınanların təxminən 10 faizi kişilərdir, yerdə qalan 90 faizlik statistika qızlara aiddir.

Anoreksiya inkişaf etmiş ölkələrdə, maddi vəziyyət normal olan cəmiyyətlətdə daha çox rastlanır. Çünki onların yeməksiz qalmaq qorxusu yoxdur, üstəlik, arıqlıq qadının gözəlliyi kimi qəbul edilir. Yeməyə bir tikə quru çörək tapmayan, aclığın, səfalətin hökm sürdüyü ölkələrdə də insanlar anoreksiya ola bilirlər, amma bu könüllü, bilərəkdən olmur, yemək qıtlığının nəticəsidir. Anoreksiya xəstələrinin hər 100 nəfərindən 20 nəfəri xəstəliyin qurbanı olur.

### Necə müalicə etmək olar?

Anoreksiya xəstələrinin müalicə çətindir, ona görə ki, onlar özlərini xəstə hesab etmirlər və müalicəni rədd edirlər. Yalnız xəstə olduğuna inanan və xəstəliyin ilk 6 aylıq mərhələsində olan anoreksiyalılar müalicə oluna bilir. Sağalmaq üçün xəstə sağalmağı özü istəməlidir.

Bəzən ev şəraitində müalicəsi mümkün olan bu xəstəliyi çox zaman xəstəxana şəraitində müalicə edirlər. Fiziki müalicələrlə birlikdə ruhi dəstək almaları, psixoloq seansları keçmələri vacibdir. Xəstəliyin eyni zamanda həm fiziki, həm də psixoloji müalicəsi daha effektiv olur. Anoreksiyalı insanlara ailəsinin dəstəyi mütləqdir, bu müalicə prosesini sürətləndirir. Müalcəsi uzun şəkən bu xəstəliyin növbəti qurbanı olmamaq üçün çəkinizə diqqət edin, nə çox yeyib piylənmə statistikasını artırın, nə də yeməkdən imtina edib anoreksiyalı xəstələr cərgəsinə qoşulun. İdeal çəki əmsalınızı hesabların və həmişə o çəkidə qalmağa çalışın.

İdeal çəkini hesablamaq üçün müxtəlif üsul və formullar var, burada boy, yaş, cins, bədən quruluşu və s. nəzərə alınır. Bu üsullara Brok, Devayn, Lorens formullarını, Ketl indeksini və s. misal göstərmək olar. Ən geniş yayılmış üsul fransız anrtopoloqu olan Pol Brokun formuludur, burada ideal çəkini hesablamaq üçün boy, yaş və cins nəzərə alınır. Formul aşağıdakı kimidir:

40 yaşa qədər insanlar üçün: boy(sm) - 110 = ideal çəki

40 yaşdan sonra: boy(sm) - 100 = ideal çəki

Tutaq ki, sizin 40 yaşınız var, boyunuz 1.70 sm-dir. 1.70-110=60 kq. Deməli, sizin ideal çəkiniz 40 yaşadək 60 kq-dır. 40 yaşdan sonra isə boyunuzdan 110 yox, 100 çıxılacaq, yerdə qalan 70 kq çəki sizin ideal çəkinizdir.

***Lalə Mehralı***

# Ötən 21 il:
## praqmatik fəaliyyətin nəticəsi

**21 il... Heç də uzaq keçmiş deyil. Hər birimizin yaşadığımız, hər ayına, anına şahidlik etdiyimiz zaman kəsiyidir. Elə bu səbəbdən də ötən 21 il hər bir hadisəsi ilə gözlərimiz önündə olduğu kimi canlanır: düşünülmüş siyasət nəticəsində Azərbaycanın gündən-günə inkişafı, tərəqqisi ilə canlanır. Dövlətimizin sıravi vətəndaşından tutmuş müəllimə, həkimə, mühəndisə, elm xadimlərinə, uşaqdan-böyüyə hər kəsə qayğısı ilə canlanır.**

Dövlət rəhbərinin ölkənin qaçqınına, köçkününə, şəhidinə, qazisinə, ümumilikdə hər bir vətəndaşına ehtiramı ilə canlanır. Ötən 21 ildə ölkənin iqtisadi gücünün ordu quruculuğuna yönəldilməsi, torpaqlarımızın bir gün işğaldan azad olunması üçün böyükmiqyaslı tədbirlərin həyata keçirilməsi ilə canlanır.

Ordu quruculuğu məsələsinin üzərində bir qədər dayanmaq istərdim. Çünki ötən 21 il daha çox torpaq və ordu ifadələri ilə yaddaşlarda qalıb. Ölkəmizdə insanlar illərlə torpaq həsrəti ilə yaşayıb. Şərəf məsələsi olduğu üçün bu, ümumilikdə hər bir vətəndaşın problemi idi. Xalq hərtərəfli inkişaf edən bir ölkədə yaşasa da, onun "Qarabağ" adlı 30 illik bir dərdi vardı ki, sağalmasını, şəfa tapmasını gözləyirdi. Məcburi köçkünlərimiz yurd həsrəti ilə rahatlıq tapa bilmirdi. Onlar öz torpaqlarını istəyirdi. Qarabağ Azərbaycanın yarası idi. Həmin yara sağalardısa, Azərbaycan tam ola bilərdi. Bunu isə yalnız dövlətin başçısı, Ali Baş Komandan, milli ordunun sərkərdəsi həll edə bilərdi. Xalq Qarabağın daha tez, hətta 90-cı illərdə işğaldan dərhal sonra azad olmasını arzulayırdı, lakin ölkənin buna imkanları çatırdımı? Bu arzu yalnız ölkə buna hazır olanda reallaşa bilərdi. Elə ötən 21 ilin prioriteti də məhz bu məsələnin üzərində qurulmuşdu.




### 21 ilə nəzər salanda...

2003-cü ildə hakimiyyətə gəldiyi ilk gündən dövlətimizin başçısı cənab İlham Əliyev torpaqların bir gün azad olunacağını ən mötəbər kürsülərdən tutmuş hər il bayramlarla bağlı xalqa müraciətlərində də vurğulayırdı. Böyük inamla vurğulayırdı. Tarixi faktlarla bu torpaqların heç vaxt ermənilərə məxsus olmadığını əsaslandırırdı. Dünyanı ədalətli olmağa dəvət edirdi. Qan axıdılmadan, insanlar məhv olmadan-sülh yolu ilə Qarabağ məsələsinin həll olunması üçün dünyaya çağırış edirdi. Nəzər saldığımız 21 ilin 10 ili əslində müharibəyə addım-addım yaxınlaşdığımızı açıqca göstərir və sübut edir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev:

2010-cu il. Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyildir, olmayıbdır və heç vaxt olmayacaqdır. Dağlıq Qarabağ heç vaxt müstəqil ölkə olmayacaqdır, Azərbaycanın razılığı olmadan bu, mümkün deyildir. Azərbaycan isə buna heç vaxt öz razılığını verə bilməz. Dağlıq Qarabağda yaşayan ermənilər və orada yaşayacaq azərbaycanlılar muxtariyyət statusu çərçivəsində yaşamalıdırlar və bu sahədə dünyanın ən qabaqcıl təcrübəsi tətbiq edilməlidir. Bizim prinsipial mövqeyimiz bundan ibarətdir və biz bu mövqedən bir addım geri atmayacağıq. Çalışacağıq bütün imkanları - həm siyasi, həm iqtisadi, həm diplomatik, həm başqa imkanları işə salaraq, bu məsələni tezliklə, ədalətli, beynəlxalq hüquq normalarına uyğun şəkildə həll edək ki, Azərbaycan vətəndaşları öz doğma torpaqlarına tezliklə qayıda bilsinlər.

Amma bununla bərabər, Azərbaycan öz hərbi potensialını da gücləndirir. Bu bizim suveren hüququmuzdur və biz bu hüquqdan istifadə edirik. Nəzərə alaq ki, Azərbaycan ordu quruculuğu prosesini daxili imkanları hesabına aparır. Təbii ki, bu bizim daxili işimizdir. Azərbaycan Ordusu son illər ərzində böyük və uğurlu yol keçmişdir. Bu gün ordumuz qarşıda duran bütün vəzifələri icra etməyə qadirdir. Torpaqları işğaldan azad etmək üçün bütün imkanlarımız vardır. Həm döyüş qabiliyyəti, həm vətənpərvərlik ruhu, həm silah-sursat baxımından imkanlarımız genişlənir. Azərbaycanda müdafiə sənayesi artıq dörd ildir ki, fəaliyyət göstərir və bu istiqamətdə böyük uğurlar əldə etmişik. Bizim hərbi potensialımız gündən-günə artır və artacaqdır. 2010-cu ildə bu məqsədləri təmin etmək üçün əlavə böyük vəsait nəzərdə tutulur. Biz Dağlıq Qarabağ məsələsini, Ermənistan-Azərbaycan münaqişəsini həll etmək üçün bütün imkanlardan istifadə edə bilərik.

2011-ci il. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli bizim üçün ən başlıca vəzifədir, ən böyük problemdir. Biz çalışırıq ki, məsələni sülh yolu ilə, danışıqlar yolu ilə həll edək. Azərbaycan öz tərəfindən bütün səyləri göstərir ki, bu məsələ tezliklə həll olunsun. Beynəlxalq birlik tərəfindən tanınmış ərazi bütövlüyümüz bərpa olunsun. Bizim ərazi bütövlüyümüzün bərpası mütləq baş verməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə barışmayacaq, heç vaxt bizim əzəli torpağımız olan Dağlıq Qarabağda ikinci erməni dövlətinin yaradılmasına icazə verməyəcəkdir. Biz hamımız yaxşı bilirik ki, bugünkü Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaradılıbdır. İrəvan xanlığı, Zəngəzur mahalı, digər bölgələr bizim tarixi torpaqlarımızdır. İkinci erməni dövlətinin Azərbaycan torpağında yaradılmasına Azərbaycan dövləti və Azərbaycan xalqı heç vaxt icazə verməyəcəkdir. Bu münaqişə yalnız beynəlxalq hüquq normaları əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır.

2012-ci il. Biz diplomatik və siyasi səylərimizi davam etdirəcəyik. Danışıqlarda bizim prinsipial mövqeyimiz vardır. Biz bu mövqedən bir addım geri çəkilməyəcəyik. Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır. Beynəlxalq birlik, Birləşmiş Millətlər Təşkilatı Azərbaycanın ərazi bütövlüyünü tanıyır, dəstəkləyir. Dağlıq Qarabağ beynəlxalq birlik tərəfindən Azərbaycanın ərazisi kimi tanınır. Münaqişə məhz bu prinsiplər üzərində öz həllini tapmalıdır. Ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. İşğalçı qüvvələr işğal edilmiş bütün torpaqlardan çıxarılmalıdır. Azərbaycan vətəndaşları işğal edilmiş bütün torpaqlara, o cümlədən Dağlıq Qarabağa, Şuşaya qayıtmalıdırlar. Ancaq ondan sonra uzunmüddətli sülh təmin edilə bilər. Biz heç vaxt imkan verə bilmərik ki, ikinci dəfə əzəli Azərbaycan torpağında ikinci qondarma erməni dövləti yaradılsın. Bu bizim prinsipial mövqeyimizdir. Bir daha demək istəyirəm ki, bu mövqe həm tarixə, həm hüquq normalarına, həm də ədalətə əsaslanır.

2013-cü il. Biz ordumuzu 2013-cü ildə daha da gücləndirəcəyik. Ordumuza xərclənən vəsait Ermənistan büdcəsindən 50 faiz çoxdur və bundan sonra da bu istiqamətdə məqsədyönlü, hərtərəfli siyasət aparılacaqdır ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi tezliklə öz həllini tapsın, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etsin.

2014-cü il. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Başqa variant ola bilməz. Azərbaycan heç vaxt imkan verməyəcək ki, bizim torpağımızda ikinci süni erməni dövləti yaradılsın. Əminəm ki, ölkəmizin ərazi bütövlüyü bərpa ediləcəkdir və işğal edilmiş bütün torpaqlarda Azərbaycan vətəndaşları yaşayacaqlar. Gələcəkdə isə azərbaycanlılar bütün tarixi torpaqlara qayıdacaqlar. Mən buna əminəm, buna şübhə etmirəm. Buna nail olmaq üçün biz daha da güclü olmalıyıq, daha da güclü orduya malik olmalıyıq və iqtisadi inkişafı təmin etməliyik.

2015-ci il. Gələn il ordu quruculuğuna, ordumuzun inkişafına 5 milyard dollara yaxın vəsait ayrılacaq ki, bu da yoxsul, dilənçi Ermənistanın ümumi büdcəsindən iki dəfədən çoxdur.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi yalnız beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapa bilər. BMT Təhlükəsizlik Şurasının qətnamələri icra edilməlidir. İşğalçı qüvvələr Azərbaycanın işğal edilmiş torpaqlarından çıxarılmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Bu, əsas prinsiplərdir. Biz bu prinsiplər əsasında istənilən müqavilənin imzalanmasına hazırıq.



2016-cı il. Xarici siyasətimizin əsas prioriteti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Əfsuslar olsun ki, 2015-ci ildə bu istiqamətdə heç bir irəliləyiş olmamışdır. Bunun da səbəbi xalq üçün aydındır. Ermənistan sülh istəmir. Münaqişəni uzatmaq istəyirlər, vaxt udmaq istəyirlər. Danışıqlarda özlərini qeyri-səmimi aparırlar və müxtəlif bəhanələrlə çalışırlar ki, bu danışıqlar prosesi daim davam etsin.

Bizim siyasətimiz bundan ibarətdir ki, bu münaqişə beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. İşğalçılar işğal edilmiş bütün torpaqlardan çıxarılmalıdır və Azərbaycan vətəndaşları doğma torpaqlara qayıtmalıdırlar.

2017-ci il. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli xarici siyasətimizin əsas prioritetidir. Deyə bilərəm ki, bizim siyasi və diplomatik mövqelərimiz il ərzində daha da möhkəmlənmişdir. Qondarma "Dağlıq Qarabağ" qurumunu heç bir ölkə tanımır və tanımayacaq. Münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bunun başqa yolu yoxdur. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi icra edilməlidir. Status-kvonun qəbuledilməzliyi haqqında artıq həm bu məsələ ilə bağlı fəaliyyət göstərən həmsədr ölkələrin prezidentləri, eyni zamanda ATƏT və digər qurumların rəhbərləri dəfələrlə bəyanatlar vermişdir.

2018-ci il. Aprel qələbəmizdən sonra Ağdərə, Cəbrayıl, Füzuli rayonlarında vaxtilə işğal altında olmuş torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Gün gələcək bizim bayrağımız bu gün hələ də işğal altında olan bütün torpaqlarda, o cümlədən Şuşada dalğalanacaqdır. Bunu deməyə əsas verən Azərbaycan xalqının əyilməz iradəsidir, Azərbaycan rəhbərliyinin siyasətidir.

Bu il Cocuq Mərcanlı kəndinə uzun fasilədən sonra həyat qayıtdı. Cocuq Mərcanlının inkişafı bizim əyilməz ruhumuzun rəmzidir. Uzun illər o kəndin sakinləri başqa yerlərdə yaşamışlar. Ancaq Azərbaycan dövləti orada qəsəbə salandan sonra onlar öz doğma torpağına qayıtmışlar. Cocuq Mərcanlının bərpası bizim qürur mənbəyimizdir. Bu gün orada 150 evdən ibarət gözəl qəsəbə salınıb, məktəb, tibb məntəqəsi, uşaq bağçası və Şuşa məscidinin - vəhşi qonşular tərəfindən dağıdılmış Şuşa məscidinin bənzəri olan məscid tikilib.

2019-cu il. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli işində biz prinsipial mövqeyimizdə qalırıq. Bizim mövqeyimiz haqq-ədalət mövqeyidir. Bizim mövqeyimiz beynəlxalq hüququn norma və prinsiplərinə tam uyğundur. Dağlıq Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Bütün dünya ölkəmizin ərazi bütövlüyünü tanıyır. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. BMT Təhlükəsizlik Şurasının qətnamələri tam icra edilməlidir, işğalçı qüvvələr qeyd-şərtsiz bizim torpaqlarımızdan çıxarılmalıdır.

2020-ci il. İl ərzində münaqişə ilə bağlı Ermənistandan çox ziddiyyətli, bir-birini təkzib edən və cəfəng bəyanatlar səslənirdi. Gah deyirdilər ki, qondarma "Dağlıq Qarabağ respublikası" müstəqil dövlətdir və Azərbaycan bu dırnaqarası müstəqil dövlətlə danışıqlar aparmalıdır. Bu, yalandır, Dağlıq Qarabağ müstəqil dövlət deyil, heç bir ölkə bu qanunsuz qurumu tanımayıb, o cümlədən Ermənistan da tanımayıb və bu il ərzində danışıqlar prosesi Ermənistan və Azərbaycan arasında aparılmışdır. Beləliklə, bu cəfəng tezis tamamilə darmadağın edilmişdir. Gah deyirdilər ki, Dağlıq Qarabağ Ermənistandır və nöqtə. Belə populist bəyanatlar vermək olar, amma bu populist bəyanatların arxasında dayanmaq mümkün deyil. Bu da yalandır, Dağlıq Qarabağ Ermənistan deyil, bütün dünya bilir və mən bunu bir daha bəyan etmişəm ki, Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi.

## Nida işarəsinin yetişdirdiyi məqam

Bəli, elə bu nida işarəsi ilə də ölkəmizin Prezidenti xalqımızın 30 illik həsrətinə son qoydu. Çünki artıq məqam yetişmişdi. Dövlət başçısının dediyi kimi: "Otuz ilə yaxındır ki, bu qətnamələr kağız üzərində qalır. Otuz ilə yaxındır ki, Minsk qrupu çərçivəsində danışıqlar aparılır və bunun sonunda Ermənistan müntəzəm olaraq hərbi təxribatlar törətməklə danışıqlar prosesini iflic vəziyyətə salıbdır. BMT-dən başqa bütün digər aparıcı beynəlxalq təşkilatlar bizim haqlı mövqeyimizi müdafiə edir. Qoşulmama Hərəkatı BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisatdır ki, bu gün Azərbaycan bu təsisata sədrlik edir. Onlar münaqişə ilə bağlı ədalətli qətnamə qəbul etmişlər. İslam Əməkdaşlıq Təşkilatı ədalətli qətnamələr qəbul etmişdir. ATƏT-in qərarları, Avropa Parlamentinin qətnamələri bizim mövqeyimizi dəstəkləyir. Bizim mövqeyimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır. Biz öz torpağımızda vuruşuruq. Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?!..."



***

Bəzi insanlara elə gəlir ki, Azərbaycan kimi böyük olmayan ölkə hər an müharibə edə, torpaqlarını geri ala bilərdi. Bu, sadəcə məsələyə uşaqcasına yanaşma idi. Həm də bu barədə özlərini ziyalı adlandıranlar belə danışırdı. Hansı ki, ölkənin iqtisadi vəziyyətini yaxşı görürdülər. Tək iqtisadi vəziyyət deyil, müharibəyə başlamaq üçün bir-biri ilə əlaqəli olan neçə-neçə amil öz həllini tapmalı idi. Bu, ya belə olmalı, Zəfərlə bitməli idi, ya da 90-cı illərdəki uğursuzluqla-uduzmaqla.

Bütün bu səbəblərdən də dövlətimizin başçısı özünün də dediyi kimi, nəyi nə vaxt və necə həll edəcəyini böyük siyasi əzmlə bacardı. Çoxlarının çoxsaylı fikirlərinə məhəl vermədən zamanın yetişməsini, ölkənin bu böyük prosesə hazır olmasını gözlədi. Və bu zamanın yetişməsi üçün böyük miqyaslı işlər həyata keçirdi.

## 44 gün: müharibə, müsahibə, müraciət

Həmin zamansa 2020-ci ilin 27 sentyabrında yetişdi və 44 gün davam etdi. Cəbhədə yeni Azərbaycan tarixi yazılarkən cənab Prezident həmin tarixə bu sözləri yazdı: müharibə, müsahibə, müraciət. Ölkəmizin başçısı ordumuza Ali Baş Komandanlıq etməklə yanaşı, həm də dünyanın bizə qarşı yönəlmiş informasiya müharibəsinin qəhrəmanı oldu 44 günün hər anında. 44 gündə dünyanın ən məşhur kütləvi informasiya vasitələrinə 30-dan artıq müsahibə verən dövlətimizin başçısı Qarabağın tarixini, strateji əhəmiyyətini, əhalisinin vəziyyətini, 30 illik işğal dövrünü, həmçinin Qarabağla bağlı susan beynəlxalq təşkilatların mahiyyətini tarixi reallıqlarla dünyaya çatdırdı. Özünəməxsus nitqi, səbri, haqsız, ədalətsiz suallara hər dəfə eyni təmkinlə cavab verməsi, müxtəlif dillərdə sərbəst, qüsursuz danışıq qabiliyyəti ilə dünya siyasətçilərini və jurnalistlərini heyrətləndirən cənab İlham Əliyev bütün bunların fonunda Azərbaycanın necə bir dövlət olduğunu təsdiqləməklə yanaşı, Ulu Öndərin layiqli övladı olduğunu da sərgilədi.

Xalqına dəfələrlə müraciət etməsi ölkəmizin rəhbərini xoş xəbər müjdəçisi etdi insanların gözündə. 44 gündə torpaqlarımızın azad olunması ilə bağlı xəbərləri tək Ali Baş Komandandan almağımız bizim bir yumruq olduğumuzun, dövlət başçısının ətrafında sıx birləşdiyimizin sübutu oldu. Azərbaycanda belə bir misal var: o yerdə ki, ağsaqqal var, orada Allah var.

***

Ölkəmizdə 43 gün davam edən müharibənin 44-cü günü qələbə bəxş etdi millətimizə. Şiddətli döyüşlər getdi Qarabağ torpaqlarında. Şəhidlər verdik, ürəyimiz parçalandı, qazilərimiz oldu. Lakin bir-birinin ardınca torpaqlarımızı erməni nankorlarından geri aldıq. Füzulimiz, Zəngilanımız, Cəbrayılımız, Qubadlımız, Şuşamız, Ağdamımız, Kəlbəcərimiz, Laçınımız erməni tapdağından xilas edildi, hüriyyətinə qovuşdu. Azərbaycan Milli Ordusu Ali Baş Komandanımızın rəhbərliyi ilə dünyanı heyrətə gətirən döyüş taktikası həyata keçirdi.

2023-cü ilin 20 sentyabrında Xankəndidə aparılan birgünlük lokal xarakterli antiterror əməliyyatı isə Azərbaycanın konstitusiya quruluşunun və ərazi bütövlüyünün təmin olunması ilə nəticələndi. Beləliklə, Azərbaycan bütövləşdi. Bu Zəfər 270 ilin Zəfəri oldu.

Bu gün Qarabağda yenidənqurma və bərpa işləri davam edir. Müharibədən dərhal sonra başlanan işlərin sürətlə aparılması soydaşlarımızın evlərinə daha tez qayıtmasına xidmət edir. Qarabağın inkişaf etdirilməsi, hər bir işğaldan azad edilmiş rayonumuzla bağlı Liderimizin fikirləri bu yurdların yaxın gələcəkdə böyük inkişafından xəbər verir. Zəngəzur dəhlizinin açılması ilə bağlı görülən işlər isə nəinki xalqımızın, region dövlətlərinin də gələcək inkişafına hesablanmış addımdır. Ermənilər üçtərəfli 10 noyabr Bəyannaməsində üzərlərinə düşən öhdəliklərin icrasını gecikdirməyə çalışsalar da, bizim Liderimiz bütün məsələlərin həllinin öhdəsindən gələcəkdir. Çünki artıq dünyanın böyük ölkələri də bizi dinləyir, haqqın tərəfimizdə olduğunu anlayır. Beləliklə, Qərbi azərbaycanlıların öz ata-baba torpaqlarına qayıtması, Zəngəzur dəhlizinin açılması, Naxçıvan blokadasının yarılması kimi gündəmdə olan məsələlərimiz yaxın gələcəkdə öz müsbət həllini tapacaqdır. Çünki bütün bunların hər biri ayrı-ayrılıqda Prezidentimizin diqqətindədir və görülən işlər, aparılan danışıqlar müsbət yöndədir.

## Zəfərin fonunda ötən 21 il

İkinci Vətən müharibəsi əldə edilən Zəfərin fonunda bir çox məqamları təsdiq etdi. Nəzər salaq:

- Ən birincisi, ata vəsiyyətini qeyd etmək istəyirəm. Cənab Prezidentimizin Ulu Öndərin "Azərbaycanın ərazi bütövlüyü təmin edilməlidir" vəsiyyətini həm bir övlad, həm də siyasi rəhbər olaraq reallaşdırması xalqımıza liderlik bacarığını göstərməklə yanaşı, həm də qədim ailə dəyərlərimizin qorunub yaşadılmasının əhəmiyyətli olduğunu aşıladı. Bu, hər bir gəncə nümunə gücündə olan təsirli məqamdır.

- Ölkəmizin Prezidentinin fəaliyyəti dövründə hər il bütün bayramlarda xalqımıza müraciətlərində Qarabağdan söhbət açıb, onun bir gün geri qaytarılacağını əminliklə söylədiyinin şahidi olmuşuq. Eləcə də beynəlxalq təşkilatların kürsülərində, xarici qonaqlarla görüşlərində eyni fikirlər hər dəfə səslənib. Bütün bunlar isə Prezidentin ötən illərdə söylədiyi sözlərin arxasında həm də bu sözlər dəyərində ordu quruculuğu prosesini uğurla həyata keçirdiyini, Ali Baş Komandanımızın sözlə əməl vəhdətini təsdiqlədi.

- Cənab Prezidentdə Azərbaycançılıqdan irəli gələn bir xarakteri də açıqca gördük. O, hər kəs kimi müharibə istəmirdi, qan tökülməsini, övlad itkisini istəmirdi. Bunu dəfələrlə Ermənistan siyasi rəhbərinə müraciətində gördük. "Torpaqlarımızdan çıxın, müharibəni dayandıraq", - dedi. Ermənilər bu mənəvi dəyərin nə olduğunu bilməsələr də, bu təkliflər onlara dəfələrlə edildi.

- II Vətən müharibəsi cənab İlham Əliyevin sayəsində bizim özümüzü tanımağımıza vəsilə oldu. Biz gördük ki, azərbaycanlılar nə qədər həmrəy, bir yumruq kimi birləşə bilən, eyni zamanda çox vətənpərvər bir xalqdır. Vətəninə, torpağına, bayrağına sevdalıdır.

- Müharibə xalqın rəhbərinə inamını da nümayiş etdirdi. Tərtərdə, Bərdədə, Gəncədə evləri dağıdılan yüzlərlə insan Prezidentə arxalandığını bildirdi. Evlərinin dağılmasına, həyatlarının təhlükədə qalmasına baxmayaraq yurdlarını tərk etmədilər, qələbə əzmi ilə yaşadılar. Bu, rəhbərə inam, Onun arxasında olmaq deməkdir. Onlar bir də bunu əmin idilər ki, evləri, həyətləri əvvəlkindən də gözəl vəziyyətdə onlara qaytarılacaqdı. Çünki onlar cənab Prezidentin verdiyi sözə əməl etdiyinin dəfələrlə şahidi olan insanlardı.

- Qarabağ müharibəsi onu təsdiq etdi ki, xalq-dövlət birliyindən güclü qüvvə ola bilməz. Elə bu qüvvə də qələbəmizin səbəbkarı oldu. Və bu birliyi heç də hər kəs yarada bilməz.

- Və son olaraq, Prezidentimizin illər öncə dediyi bu fikirlərini təsdiqlədi: "Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm. Mənim borcumdur ki, imkan daxilində hər bir vətəndaş inkişafa, yaxşılığa doğru irəliləyişi görsün və onu hiss etsin".

Ötən 21 ilin uğurları, xüsusilə də tariximizin şanlı səhifəsini təşkil edən Qarabağ Zəfəri Prezidentimizin praqmatik fəaliyyətinin nəticələridir. O nəticələr ki, bu gün bütün dünyanın diqqətini özünə yönəldən məqamlardır. Azərbaycanın güclü, eyni zamanda sülhsevər dövlət olduğuna dünyanın şahidliyidir. Ən əsası isə Azərbaycan vətəndaşının qürur yeridir. Bunu zaman sübut etdi.

***Mətanət Məmmədova***

# Nasizm Avropada yeni fəlakət yarada bilər

## Almaniya heç bir zaman "faşizm" adını üstündən götürə bilməyəcək

Avropada hökm sürən iqtisadi, siyasi böhran bu qitənin xalqlarını dərin sarsıntılara məruz qoyub. Hakimiyyətlərin yanlış siyasətləri, xüsusilə də yeni müharibələrə, münaqişə ocaqları yaratmaq üçün xərclədikləri milyardlarla dollar və ya avro vəsaitləri insanların həyat şəraitlərinin ağırlaşmasını təkan olub. Xüsusilə də, Almaniya, Fransa, Niderland kimi ölkələrdə sosial, iqtisadi vəziyyət daha ağır və fəlakətlidir. İnsanlar küçələrə çıxır və hökumətin vergi, gömrük, iqtisadi siyasətinə qarşı qəti etirazlarını bildirirlər. Ancaq bu etirazlar hökumətlərin fəaliyyətlərinə hər hansı bir formada təsir etmir. Səbəbi də hakimiyyətlərin xalqın çağırışlarına, ümumiyyətlə cəmiyyətin istək və tələblərinə əhəmiyyətsiz yanaşmaları ilə bağlıdır. Almaniyanın Olaf Şolts hökuməti açıq şəkildə xalqına qarşı hörmətsizlik, belə demək olar ki, bəzi hallarda aşağılayıcı siyasət nümayiş etdirir. Cəmiyyətin əksər təbəqələri, o cümlədən siyasi partiyalar O.Şoltsdan iqtisadi, sosial siyasətini dəyişməyi tələb etsə də nəticə əldə olunmayıb. Məlumata görə, almanlar artıq böyük istehsal sahələrinin çöküşü, sürətlə pisləşən demoqrafik vəziyyət, dağılan nfrastruktur və innovasiya çatışmazlığını görməzdən gələ bilmirlər. Əhali arasında aparılan rəy sorğuları göstərir ki, iqtisadi məsələ artıq seçicilər üçün əhəmiyyətinə görə ikinci yerdədir və yalnız miqrasiya problemindən geri qalır. Bir zamanlar Avropanın iqtisadi lokomotivi olan Almaniya bu gün ciddi çağırışlarla üzləşir.



### Olaf Şolts ”təslim” olur



Əhalinin və siyasi partiyaların sərt müqaviməti ilə üzləşən O.Şolls hökumətin buraxılması və fevralın 23-də ölkədə növbədənkənar ümumi seçkilərin keçirilməsi qərarını verməyə məcbur olub. Bundestaq Şoltsun hökumətinə etimad səsverməsi keçirib. Almaniya Bundestaqı növbədənkənar iclasda kansler Olaf Şoltsa etimad göstərməkdən imtina edib. İclasda 733 deputatdan 207-si Şoltsun lehinə, 116-sı bitərəf, 394 parlamentari isə onun əleyhinə səs verib. Bundestaqın sədri bildirib ki, nəticələr barədə ölkə Prezidenti Frank-Valter Ştaynmayerə məlumat veriləcək. Söz yox ki, Almaniya qanunvericiliyinə əsasən uğursuz səsvermədən sonra kansler Şolz Almaniya prezidenti Franz-Valter Ştaynmayerlə görüşüb və ondan kabinetinin istefasını rəsmi olaraq xahiş edib. Almaniya Prezidenti Ştaynmayer şərti olaraq bu istefanı qəbul edib və 23 fevral 2025-ci il tarixinə yeni seçkilər təyin edəcəyini bildirib. Bu tarixə qədər Almaniyanı O.Şoltsa sadiq Sosial Demokratlar və Yaşıllardan ibarət ”zəif” hökumət idarə edəcək. Siyasi ekspertlər proqnozlaşdırır ki, bu hakimiyyətdən qətiyyətli addımlar gözləmək olmaz.

Məlumat üçün qeyd etmək lazımdır ki, Almaniyanın ən populyar partiyaları tərəfindən O.Şoltsun üç illik hakimiyyətinin yaxşı nəticələrini rədd etdi. Birincisi, 33% reytinqə malik mühafizəkar Xristian Demokrat İttifaqı (CDU) var. İkincisi, hazırkı kabinetə Almaniyada ”ultrasağ” və ”Rusiyayönlü” partiya kimi iblisləşdirilmiş ”Almaniya üçün Alternativ” (AfD) partiyası qarşı çıxdı. Əslində, kansler Şolz dağılmış koalisiyasının deputatların etimadını qazanacağına o qədər də ümid etmirdi. 2021-ci ildə yaradılan Şolz Sosial Demokratlarının özünün, Yaşılların və Azad Demokrat Partiyasının (FDP) liberallarından ibarət ”üçlük” Kristian Lindner bu ilin noyabrın 6-da, indi Lindnerin fəaliyyətini dayandırdığı hesab edilir. keçmiş maliyyə naziri hökuməti tərk etdi. Niyə deputatlar Scholz, B?rbock və Habeck hökumətinə qarşı belə sərt davrandılar? Bu koalisiya hələ də bütöv ikən çox problem yaratdı. Səsvermədən əvvəl müzakirə zamanı nümunələr gətirildi. Məsələn, Rusiyaya qarşı sanksiyalarda iştirak və Rusiyadan qaz və neftdən birtərəfli imtina ”Almaniyanın müharibədən sonrakı tarixində ən dərin iqtisadi böhrana” səbəb oldu. (Bundestaqdakı debatda çıxış edən ”Almaniya üçün Alternativ” partiyasının lideri Elis Veydel də bu ifadəni işlədib). Onun lideri, indiki kansler Fridrix Merzin rəhbərlik etdiyi Xristian Demokrat İttifaqı (CDU) da Şolzun iqtisadi siyasətini uğursuz adlandırıb.

Bundestaqda AfD adından danışan xanım Vaydel həmçinin Solltsu ”ilk dəfə Almaniyanı nüvə başlıqlı raketlər üçün hədəfə çevirməkdə” ittiham edib. Onun fikrincə, kansler Ukraynaya düzgün düşünülməmiş silah tədarükü ilə ölkəni ”Avropada yeni dəhşətli müharibəyə sürükləyir”.

### İlon Mask Olaf Şoltsu istefaya çağırdı

Baş verən xoşgəlməz proseslərə baxmayaraq O. Solts hələ də hakimiyyətdə qalmağa ümid edir. Təbii ki, istəyinə yeni koalisiya da edə bilər. Belə bir koalisya qurula bilərmi? XDİ Sosial Demokratlarla ”böyük koalisiyaya” razılaşarsa, nəticə verəcək. Rusiyaya yaxşı bir şey vəd etmədən hadisələrin bu inkişafı hələ də ”qara-yaşıl” variantdan daha yaxşıdır. Solts heç olmasa Zelenskiyə Taurus raketlərinin göndərilməsinin əleyhinədir və Rusiyanın dərinliklərinə zərbələr endirilməsinin əleyhinə olduğunu bəyan edib. Lakin bu heç də hakimiyyətdə qalmaq üçün yetərli məsələ hesab edilmir. Çünki O.Şolts Almaniya cəmiyyətində arzuedilməz siyasətçiyə, hakimiyyət nümayəndəsinə çevrilib. Cümə günü axşam Maqdeburqun mərkəzində Milad bazarında baş verən faciəli hadisə ona qarşı daha bir zərbə hesab olundu. Elə bir vəziyyət yandı ki, amerikalı milyarder İlon Mask belə O.Şoltsdan baş verən faciəli hadisəyə günahkar bilib, onu istefa verməyə çağırdı. Maqdeburqun mərkəzində Milad bazarında baş verən faciəli hadisə nəticəsində 200-ə yaxın qurban, onlardan 86-sı ağır vəziyyətdə xəstəxanalardadır, ikisi - bir böyük və bir azyaşlı uşaq ölüb. Hücumdan sonra 10 nəfərin öldüyü bildirilir. Polis hələ də cinayətkarın motivlərini araşdırır və müəyyən edir. Faciəni törədən terrorçu dərhal saxlanılıb. Onun 18 ildir Almaniyada yaşayan 50 yaşlı Səudiyyə Ərəbistanlı olduğu məlum olub, 2006-cı ildə qaçqın statusu alıb. O Maqdeburqun yaxınlığında yerləşən kiçik şəhərdə həkim işləyib və təhsili ilə psixiatrdır.

Səudiyyə Ərəbistanı rəsmiləri terrorçunun kimliyi ilə maraqlanıb və şübhələrini Berlinlə bölüşüb. Daha sonra onun ”X” sosial şəbəkəsindəki (keçmiş Twitter) hesabında yerləşdirdiyi ekstremist bəyanatları olan nəşrlərə başı keçirilib. Xüsusilə də həmin şəxs Almaniyanı islamçılara qarşı dözümlülüyünə görə cəzalandırmaq istədiyini iddia edib. ”Der Spiegel”in yazdığına görə, məhbus Almaniyanın sağçı ”Almaniya üçün Alternativ” partiyasına rəğbət bəsləyib, lakin nəşr bununla bağlı sübut təqdim etmir.

### Almaniyada seçkilər ”Hitlerçi”lərin qələbəsi ilə başa çatsa, nə baş verəcək?

2025-ci ilin fevralın 23-də keçirilməsi planlaşdırılan Almaniya kansleri vəzifəsinə seçkilərdə faşizmin qələbə qazanacağı ehtimal olunur. Çünki ölkədə faşist dərnəkləri daha çox üstünlüyə malikdirlər. Çoxluğun faşizmin yeni formasında fəaliyyət göstərən ”Almaniya üçün Alternativ” partiyasının nümayəndəsi Alis Veydeliyə dəstək verməsi 23 fevraldan sonra Almaniyada yeni dövrün başlayacağından xəbər verir. ”INSA” tədqiqatçılarının əhali arasında apardığı sorğuya görə, respondentlərin 20%-dən çoxu Alis Veydelin namizədliyini dəstəkləyir. Ötən həftə ilə müqayisədə o, 3% daha çox səs toplayıb. Seçki yarışında Almaniyanın hazırkı kansleri Olaf Şolz və Xristian Demokrat İttifaqının rəhbəri Fridrix Merz də iştirak edir. Sorğunun nəticələrinə görə, hər ikisi Alise Veidelə uduzurlar. Olaf Soltsun vəziyyəti fəalkətlidir. Respondentlərin yalnız 15%-i onu dəstəkləyir. Almaniyanın İqtisadiyyat naziri Robert Habek də Almaniya kansleri postuna namizədliyini irəli sürür. O, 14% səs toplayıb.

Almaniya kansleri Olaf Şoltsun rəhbərlik etdiyi Almaniya Sosial Demokrat Partiyası (SPD) siyasətçinin azalan populyarlığı səbəbindən onun 2025-ci ildə keçiriləcək milli seçkilərdə namizədlikdən kənarlaşdırmağı planlaşdırır. ”SPD-də ABŞ Prezidenti Co Baydenin vitse-prezident Kamala Harrisə necə icazə verdiyini xatırlayan çoxlu insan var. Bu, Almaniya üçün presedent ola bilərmi? Şoltsun ictimai sorğulardakı nəticələrinə baxanda belə sualların niyə yarandığını başa düşmək olar”, - nəşr Almaniya kanslerinin partiyasından olan anonim mənbənin sözlərindən sitat gətirib.Məqalə müəllifləri qeyd ediblər ki, SPD-nin bəzi nümayəndələri özəl olaraq ”artıq Şoltsun namizədlər siyahısından çıxarılmasını təklif etməyə başlayıblar”. Bundan əlavə, onlar Şoltsu ”daha populyar siyasətçi” ilə əvəz etməyi planlaşdırırlar. Yeni namizəd kimi Almaniyanın müdafiə naziri Boris Pistoriusun və Saarland Federal əyalətinin Baş naziri Anke Rehlinqerin adı hallanır.

### Almaniyada varlı insanlarla aşağı təbəqəli əhali arasında dərin uçurum yaranıb

Diqqətçəkən məqam ondan ibrətdir ki, ”Almaniya üçün Alternativ” partiyası yarandığı 2013-cü ildən fəaliyyətini daha çox populizm üzərində qurub. Yəni insanların istəklərinə uyğun siyasi mövqe sərgiləyir. Halbuki irəli sürülən təkliflərin və ideyaların reallaşdırılması mümkünsüzdür. Çünki Almaniya iqtisadiyyatı tənəzzülə uğramqdadır. Aşağılarla yuxarılar arasında dərin uçurum yaranıb. Varlı insanlarla aşağı təbəqəli əhali arasında dərin uçurum yaranıb. Demək olar ki, orta təbəqə mövcud deyil. Bu da Almaniya cəmiyyətində dərin böhran yanıb. Hələ 2013-cü ildə ”Almaniya üçün Alternativ” partiyası Almaniya vergi ödəyicilərinin Yunanıstan və ya Portuqaliyanın borclarını ödəməməsi üçün Almaniyanın Aİ-ni tərk etməsində israr edirdilər. Partiyanın reytinqləri miqrasiya böhranının kəskinləşməsi ilə birlikdə yüksəlməyə başladı. Almaniya bir milyona yaxın qaçqını qəbul edəndən sonra Alternativ miqrantların qəbuluna qarşı çıxdı və Angela Merkeli buna görə tənqid etdi. Dörd il ərzində partiya Almaniyanın demək olar ki, bütün regional parlamentlərinə daxil ola bildi. Nəticələrə əsasən, ifrat sağçı ”Almaniya üçün Alternativ” Şərqi Almaniyada daha populyardır (burada o, 20 faiz toplayıb), Saksoniyada isə bütün digər partiyaları məğlub edib. - Almaniyada son illər ərzində ilk dəfə olaraq ultrasağların qələbəsi xoşagəlməz sürprizdir, yoxsa başqa ölkələrdə də görünəcək tendensiya? - Bu, artım böhranı yaşayan Aİ-yə xas olan ümumi tendensiyanın bir hissəsidir, Avropaya inteqrasiya modelinin böhranıdır. Bu, avroskeptiklərin bütün Aİ ölkələrində artan təsirində, o cümlədən onların bu Alman partiyası kimi radikal hərəkatlarında özünü göstərir. Hesab edirəm ki, onlar hakimiyyətə gələ bilməzlər. Aİ ölkələrində siyasi sistemin özü bütün ölkələrdə eyni şəkildə qurulub. Bu, çoxpartiyalı sistemə əsaslanan liberal demokratiyadır. Bu sistemin bir çox mənfi cəhətləri var, məsələn, qərarlar yavaş qəbul edilir. Lakin bu ləngLik sistemlərin özlərinin çox qəfil dəyişikliklərdən sabitliyinin təminatıdır. ”Almaniya üçün Alternativ” kimi partiyalar öz cəmiyyətləri üçün çox radikal transformasiya təklif edirlər. Onların siyasi sistemlərində bu mümkün deyil. Çünki, Almaniya cəmiyyəti tam demokrati prinsiplərə hələ ki hazır deyil. Digər tərəfdən Almaniya Avropa Birliyinin fəal üzvü olduğuna görə, miqrantları qapısından qova bilməz.

Baxmayaraq ki, ”Almaniya üçün Alternativ” partiyasından kansler olaraq namizədliyi irəli sürülən Alise Veidel hələ bir neçə il əvvəl miqrantların ölkəyə gəlməsinə qarşı çıxırdı. Kanslər olarsa miqrantlarla bağlı istəklərini yerinə yetirə bilməyəcək. Çünki bu onun siyasi intiharı, ölkəsinin mövcudluğunun təhlükə qarşısında qalması ilə nəticələnə bilər. Etiraz etmək, çabalar göstərmək gücünə də malik olmayaq. Ən azı ona görə ki, bu gün 20-ci əsrin əvvəli və ya ortaları deyil ki, hitlerçilər dünyada ağalıq iddiasına düşsünlər, bu gün artıq Hitleri və onun ideologiyasını tarixin zibilliyinə göndərən və yeni azad, demokratik dünya düzəni yaratmağı hədəfləyən Azərbaycan, Türkiyə, Pakistan, Misir, Macarıstan, Gürcüstan və bu kimi digər tərəqqipərvər dövlətlər var.

**İLHAM ƏLİYEV**

# Planetimizi kim xilas edəcək?

## Sosial və mənəvi məsələlər üzrə ekspert Ramal Əliyevin SİA-ya müsahibəsini təqdim edirik:







***- COP29 tədbiri, beynəlxalq səviyyəli göstəriş bizə nəyi verdi?***

- Həqiqətən də, Azərbaycan böyük bir tədbirin öhdəsindən gəldi. Bilirsiniz ki, COP29 BMT-nin beynəlxalq iqlim problemləri ilə bağlı mübarizə üçün ən böyük tədbirlərindən biridir. Fransa iqlim razılaşması içərisində keçirilən ən böyük və ən faydalı tədbirdir. Azərbaycan buna qədər bir neçə dünya səviyyəli tədbirlərin öhdəsindən layiqincə gəlib. Bura Formula1, idman və mədəniyyət tədbirlərini daxil etmək olar. Amma bizim insanlarımız o tədbirlərin mahiyyətini anlasalar da, təəssüflər olsun ki, COP29-la bağlı camaatda bir az məlumatsızlıq var. Halbuki, COP29 o tədbirlərdən daha önəmlidir. Çünki həyati əhəmiyyət daşıyan tədbirdir. Dünya gəmiyə bənzəsə, əgər bu gəmi bir tərəfdən deşilsə, bir gəmi batmış olar. Ekoloji problemlər də bu tiplidir. Bu, təkcə ekoloji deyil, beynəlxalq-siyasi arenada Azərbaycanın imicinin tanınması üçün çox möhtəşəm tədbir idi. Azərbaycan bir daha 200 dövlətin dövlət başçılarını, nazirlərini, dünyanın 1000-dən çox beyin mərkəzlərinin, elmi-tədqiqat institutlarının əməkdaşlarını qəbul etməklə göstərdi ki, Azərbaycan böyük bir inkişaf mərhələsindədir. Azərbaycan daha böyük tədbirlərə ev sahibliyi edə bilər, Azərbaycan Cənubi Qafqazda söz sahibi olmaqla yanaşı dünyada da 44 günlük Vətən müharibəsindən sonra möhtəşəm imic formalaşdırıb. Ekoloji məsələlərə gəldikdə isə bu tədbir bizim ekoturizmimizin inkişafında böyük töhfə verəcəkdir. Biz yaxın gələcəkdə bunun şahidi olacağıq.

***- Planetimizi kim xilas edəcək?***

- Planetimizdə iqlim probleminin birbaşa səbəbkarı insanlardır. Bunun üçün də hər bir fərd və təşkilat məsuliyyət daşıyır. Çünki qlobal problemlər yaradılıb, bunun həlli yollarını axtarıb tapmaq lazımdır. Əvvəlcə hər bir valideyn ekologiyanın qayğısına qalmaq barədə maariflənməlidir. Digər tərbiyə metodlarında istifadə etdiyi kimi ekoloji problemlərin də qarşısını almaq üçün övladlara maariflənmə işi aparılmalıdır. Bu, silsiləli şəkildə, həm bağçada, həm orta məktəbdə dərsliklərə salınmalıdır. Təəssüflər olsun ki, biz bəzən xırda ekoloji çirklənməyə məruz qalırıq. Valideynin yanında məktəbli meyvə şirəsini içir və zibili yola tullayır. Bilərək, bilməyərək bu, ekologiyaya vurulan ən böyük problemlərdən biridir. Xəzər dənizinin ətrafında çirklənmələrə rast gəlirik. Qarpız qabıqları, plastik tullantılar, üfunət iyindən dayanmaq olmur. Bunlar epidemiyalara səbəb olur. Plastiklər əsrlərlə olduğu kimi qalır. Plastik qablar balıqlara yem olur, sonra onlarla biz, övladlarımız qidalanır. Bu da xərçəng və digər sağalmaz xəstəliklərə səbəb olur. Bu məsələnin Azərbaycan üçün nə qədər siyasi önəmi var. 44 günlük Vətən müharibəsində bizim əleyhimizə olan dövlətləri gözümüzün qarşısından keçirək: Fransa, İran, ABŞ. Bunun birbaşa siyasətlə əlaqəsi var. 200-ə yaxın dövlət iştirak etdi və bu üç dövlət öz tavrını burada da ortaya qoydu. Qlobal problem idi, niyə iştirak etməyəsən?

***- İnsanların cəhdləri nəticə verəcək? Bəzən biz heyvanlara da zərər vururuq və onların dərilərindən istifadə edirik. Bunlar özümüzü göstərməyə, yoxsa heyvanlara ziyan vurmağa hesablanıb?***

- Ekologiyanı çirkləndirən bizik - dünyanın sakinləri. Birinci olaraq bu məsələyə özümüz əməl etməli, övladlarımızı öyrətməliyik. Dünyamız göstərici dünyadır. Bizim yaşlarımıza, toylarımıza sirayət edən göstəriş var. Şərq camaatı göstərişi sevir. Avropada daha soyuq rənglərə, daha sadə ev təmirinə üstünlük verildiyi halda, Azərbaycan və Şərqə doğru daha çox getdikcə Hindistan, Ərəb ölkələri rəngarəngliyi daha çox sevirlər. Bu da Şərqin göstəriciliyi daha çox sevməsindən irəli gəlir. Yenə də deyirəm, hər bir fərdin üzərinə böyük məsuliyyət düşür, istər geyimlərdən istifadə olsun, istər heyvanlara zərər vermək olsun. Biz mağazaya girəndə bir məhsulun istifadə müddətinin bitib-bitməməsinə baxırıq. Əgər bir şeyin vaxtı bitibsə, sağlamlığımıza ciddi zərərdir. Siqaretin üzərində yazılıb ki, sağlamlığınıza ciddi ziyandır. Xərçəng xəstəliyinə və qan təzyiqinə səbəb olur. Amma bunu bildiyimiz halda alıb çəkirik. Bunu bilən insan tülkünün dərisini geyinməyə diqqət edər? Bir də bəhs məsələsi var. Bizim millətimizin çox üstün tərəfləri var. Ailə modelimizin mühafizəkarlığını bütün verilişlərdə mövzu ilə əlaqədar fikir bildirirəm. Amma çatışmayan cəhətlərimiz də kifayət qədər mövcuddur. Əgər imkanından asılı olmayaraq hər kəs düşünsə ki, bu, xəz dəri heyvanın dərisidir, mən geyinirəm və pul verməsə, bu biznesin ləngiməsinə, zərərə uğramasına səbəb olarsa, heyvanlar kütləvi öldürülməz. Elə heyvanlar var ki, biz onlarla qidalanırıq, vegeterian deyilik. Yaradan bizi xəlq edib, yeyilməli qidalar var, yeyilməli olmayan var. Biz deyə bilmərik ki, niyə qoyunlar kütləvi qırılır, çünki bu, bizim üçün qida vasitəsidir. Təəssüflər olsun ki, cəmiyyət kütləvi şəkildə israfa doğru gedir. Bu, bizə ekoloji, sağlamlıq cəhətdən və insanlarla ünsiyyət cəhətdən zərbə vurur.

***- COP29-un mahiyyəti nədən ibarətdir?***

- COP29-un dövlətimiz üçün həm ekoloji, həm də siyasi mahiyyəti var. Siyasi mahiyyəti ondan ibarətdir ki, Azərbaycan Cənubi Qafqazda önəmli dövlət olduğunu bir daha göstərdi. Azərbaycan bir daha sübut etdi ki, dünya səviyyəli tədbirlərə nəinki ev sahibliyi edə bilir, öhdəsindən də gələ bilir. Siyasi mahiyyəti odur ki, Azərbaycan dünya dövlətləri ilə yeni siyasi kommunikasiya yaratdı. Biz bunun gələcəkdə həm iqtisadi, həm mədəni tərəfdən, həm maddi, həm də siyasi faydalarını görəcəyik.

***- Böyük dövlətlər kiçik dövlətləri hər zaman sıxışdırıb, inkişafını əngəlləməyə çalışıb. Lakin iqlim məsələsi onların özünə də ziyan etmirmi?***

- Aydın müəllim dünyada resursların tükənməsi ilə bağlı insanların azalmasının tərəfdarı olduğu halda mən bizim demoqrafik vəziyyətimizin yaxşı olmadığını düşünüb millət olaraq atmağımızın tərəfdarıyam. İstəyirəm ki, Azərbaycanda çoxsaylı uşaq olan ailələr olsun. Çünki demoqrafik vəziyyətimiz yaxşı deyil. Əslində biz insanlara resursları bitirən varlıq kimi baxmamalıyıq. Biz onları doğru-düzgün tərbiyələndirsək, resurslardan düzgün istifadə etsək, Allah kainatı elə yaradıb ki, insanların sayı qədər də resurslar kifayət qədərdir. Ona görə də, azərbaycanlı olaraq çoxuşaqlı ailələrin tərəfdarıyam. Dövlətimiz sosial müavinətlər verir, ailə başçılarının itirilməsi ilə bağlı dəstək var. Abituriyentlərin xaricdə təhsili ilə bağlı maliyyə dəstəyi var. Düzdür, uşaq pulu hələ verilmir. Əvvəllər ailədə 7-8 nəfər uşaq olurdu. Onları savadsız ana böyüdürdü, amma uşaqların 5-6 nəfəri ali təhsilli olurdu. Sevindirici haldır ki, abituriyentlərin 60 faizini qızlar təşkil edir. Bu o deməkdir ki, Azərbaycan valideyni övladının təhsil almasına böyük önəm verir.

***- Dövlət uşaq pulu vermir. Ölkə üzrə çoxuşaqlılıq müavinətini ölkə 3-5 min ailə alır. İstisnasız bütün uşaqlara uşaq pulu verilməlidir.***

- Biz də başa düşürük ki, uşaq pulu verilsə, gözəl olar. Amma bir şeyi nəzərə alaq. Mən heç bir partiyanın üzvü deyiləm. Mənasız müdafiə də etmirəm. Dövlətimizin verdiyi müavinətləri də saydıq. Nəzərə alaq ki, hər birimizin böyük dərdi olan torpaqlarımızı azad etmək üçün böyük siyasi çaba göstərildi, böyük iqtisadi xərclər çəkildi. İqtisadi xərclər üçün təbii ki, böyük neft pulları xərclənildi, istər silahların alınmasında olsun, istərsə də digər xərclərdə olsun. Elə pərdəarxası məqamlar var ki, bunları hamının bilməsi vacib deyil. Mənim də dörd övladım var, istərdim ki, uşaq pulu alaq. Bir evdə zən edək ki, 6 ailə üzvü var. Ailə üzvlərindən biri ağır xəstəliyə tutulur. Bəzən insan öz saatını, pencəyini satır ki, o xəstəlik sağalsın, sonra lazım olsa, beş pencək də almaq olar. Amma bizim önəmli işimiz o xəstəliyin sağalmasıdır. Bu gün bizim önəmli işimiz Qarabağın alınması və onun bərpasıdır.

***Söylü Ağazadə***

# Növbəti sosial islahat paketi ümumən 3 milyon insanı əhatə edəcək

Əməkhaqqı, pensiya, müavinət və təqaüdlər artacaq. SİA yerli mənbələrə istinadən xəbər verir ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Prezident İlham Əliyevin imzaladığı "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" 2024-cü il 23 dekabr tarixli Sərəncam dövlət başçısının siyasətinin mərkəzində vətəndaş rifahının təminatı prinsipinin dayandığını və bu məqsədlə aparılan sosial islahatların uğurla davam etdirildiyini bir daha göstərir.





Sərəncama əsasən, 2025-ci il yanvarın 1-dən ölkəmizdə minimum aylıq əməkhaqqının məbləği 345 manatdan 16 faiz artımla 400 manata, 2025-ci il fevralın 1-dən əmək pensiyasının minimum məbləği 280 manatdan 14,3 faiz artımla 320 manata çatdırılacaq. Bu artımlarla birgə artıq 2018-ci ilin əvvəlindən minimum aylıq əməkhaqqında 3,1 dəfə, minimum pensiyada 3 dəfəyədək artıma nail olunub. Yeni sosial islahat paketində digər sosial ödənişlərin artırılması da yer alıb. Sərəncamla Nazirlər Kabineti gələn il sosial müavinətlərin və təqaüdlərin məbləğlərinin artırılması ilə bağlı təkliflərini 3 ay müddətində Prezidentə təqdim edəcək.

2018-2024-cü illərdə müavinət və təqaüd ödənişlərində 5 dəfə artım baş verib və göründüyü kimi, bu artım dinamikası gələn il də davam edəcək. Həmçinin Sərəncamla Nazirlər Kabineti dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə aylıq tarif (vəzifə) maaşlarının minimum aylıq əməkhaqqının artırılmış yeni məbləğinə uyğunlaşdırılmasını təmin edəcək.

Beləliklə, həmin sahələr (sosial, elm, təhsil, səhiyyə, mədəniyyət, gənclər, idman, kənd təsərrüfatı, ekologiya, ətraf mühitin mühafizəsi, mənzil-kommunal, nəqliyyat, rabitə, meliorasiya, su təsərrüfatı və s.) üzrə 19 pillədən ibarət Vahid Tarif Cədvəlinin ilk pilləsindəki maaş 400 manata çatdırılmaqla, digər pillələr üzrə maaşlarda da buna uyğun artımlar tətbiq ediləcək. Yeni Sərəncamla icrasına başlanan növbəti sosial islahat paketi ümumən 3 milyon insanı əhatə edəcək və onlara yönələn əməkhaqqı, pensiya, müavinət və təqaüdlər artırılacaq. Həmin artımlar üçün illik əlavə olaraq 1,4 milyard manat ayrılacaq.

# Yeni İl günü Bakıdakı otellərdə QİYMƏTLƏR

***Məlumdur ki, Yeni il yaxınlaşdıqca bir çox insan yeni il proqramlarını hazırlamağa başlayıb. Lakin bir çoxları da bu barədə qərarsızdır. Hər kəs bu Yeni il gecəsini ən yaxşı şəkildə keçirmək istəyir. Son zamanlar otellər təklif etdikləri imkanlarla bu baxımdan bir addım öndədir. Otellərdə keçirilən Yeni il gecələri günlərlə danışılır və enerjiləri aylarla davam edir. Bu baxımdan bir çox insanlar Yeni il gecəsi otelləri axtarır. Bəs, Yeni il gecəsini oteldə qeyd etməyin üstünlükləri nələrdir?***

SİA mövzu ilə bağlı araşdırma aparıb.

- İlk növbədə qeyd etməkdə fayda var ki, Otellərdə keçirilən Yeni il gecəsi proqramlarında bütün detallar diqqətlə nəzərdən keçirilir.

- Otelin Yeni il paketlərində yerləşmə variantları da olduğu üçün əyləndikdən sonra evə qayıtmaqda problem olmayacaq.

- Normalda evdə ziyafət keçirmək istədiyiniz zaman ev bəzəkləri, yeməklər, əsas yeməklər, spirt və s. daxil olmaqla 2 həftəlik hazırlıq müddəti tələb olunur. Ancaq Yeni il gecəsini oteldə qeyd edərkən bunların heç birinə ehtiyac yoxdur. Qısa müddət öncədən rezervasiya edib, Yeni il günündə ən gözəl paltarları geyinərək o gözəl gecənin dadını çıxara bilərsiniz.

- Yeni il gecəsini oteldə qeyd etməyin başqa bir üstünlüyü yeni və ləzzətli təcrübələrdir. Usta aşpazların hazırladığı yaxşı oteldə yeni il proqramına qatılmaq həm gözə, həm də damağa oxşayır. Beləliklə, yemək hazırlamaqdan narahat olmayacaqsınız.

- Yeni ilə imtiyazlı oteldə qədəm qoymağın başqa bir üstünlüyü ən yaxşı DJ-ləri, ən usta artistləri və daha çoxunu ən yaxşı əhval-ruhiyyə və çıxışlarında dinləməkdir.

- Eyni zamanda, Yeni il gecəsini oteldə qeyd etmək möhtəşəm vizual şoular yaşamaq deməkdir.

Oteldə qeyd olunan Yeni il gecəsinin təsirləri təkcə Yeni il ərəfəsində deyil, sonra da davam edir. Yeni ilin ilk günündə dağınıq və çirkli bir evdə yuxudan oyanmayacaqsınız və səliqə-sahmanla məşğul olmayacaqsınız.

Bəs, gəlin görək Bakıdakı məşhur otellərdə 31 dekabr günü gecələmək neçəyə başa gəlir?

Hilton Baku

31 dekabr - 1 yanvar, 1 gecəlik qiymət 2 nəfər üçün 454 AZN

JW Marriot Absheron Baku Hotel

31 dekabr -1 yanvar 1 gecə 2 qonaq üçün qiymət 675 AZN

FLY İNN BAKU

Adi günlər üçün: 165 AZN

31 dekabr -1 yanvar 1 gecə 2 qonaq üçün qiymətlər

Klassik kral otaq- 210 AZN

Suites otaq - 352 AZN

İcraçı suite- 237 AZN

Təmsilçi suite- 1792 AZN

Holiday İnn Baku

1 gecəlik 2 nəfər üçün otaq qiyməti 356.60 AZN səhər yeməyi daxil

Shah Palace Hotel

Standard otaqların qiyməti - 160 azn

Presidetal Suite üçün isə - 900 azn təşkil edəcək. Ümumilikdə, bir çox otellərdə Yeni il günü qiymətlər sıradan günlərdən daha bahadır.

***Ayşən Vəli***













# Makronun qulaqları

## *Gürcüstan hadisələrində Fransa izi*





Cənibi Qafqazın ram edilməsi, nüfuz dairəsinə çevrilməsi uğrunda iri dövlətlər arasında əsl müharibə, didişmə gedir. Özünü önəmli aktor hesab edən güclər bunu öz metodlarına uyğun təmin etməyə can atırlar. Bəziləri bunu iqtisadi, digərləri siyasi, Fransa kimi Qərb ölkələri isə əsasən hərbi "dildə" danışmağa üstünlük verirlər. Hərbi üsul həmişə keçərli olmur, rəsmi Paris bunu Afrikada sınaqdan çıxarıb və bu, ona milyardlarla itki bahasına başa gəlib. Bu gün Afrikadan, Dənizaşırı ölkələrdən qovulan Fransa təskinliyi Cənubi Qafqazda tapmağa çalışır. Erməniləri ələ ala, onları boş damarını tuta bilir. Amma bu metod qalan iki dövlətdə keçərli deyil. Dünya miqyasında öz sözünü müstəqil şəkildə, heç kimdən çəkinmədən deyən Azərbaycandan fərqli olaraq digər iki ölkədə, Ermənistan və Gürcüstanda bunu söyləmək bir az çətindir.

Azərbaycan Prezidenti İlham Əliyev verdiyi son müsahibə dünya mediasında müzakirə olunmaqdadır. Rusiyanın "Vzqləd" qəzetində dərc olunmuş məqalədə Prezident İlham Əliyevdən misal gətirilir və qeyd edilir ki, Gürcüstandakı hadisələrin arxasında Fransa prezidenti Emmanuel Makron dayanır. Tbilisidə qərbyönlü müxalifətin hökuməti devirmək cəhdləri boşa çıxdı, lakin hələ başa çatmayıb - Yeni il bayramları üçün son həlledici hücum qarşıdadır. Bütün bunlarda Makronun rolu nədir? "Yenə görürsən, Makronun qulaqları çölə çıxır. İnsan öz ölkəsində otura bilməz, mütləq Gürcüstana girməlidir". Azərbaycan Prezidenti İlham Əliyevin müsahibəsi zamanı dediyi bu fikirlə mübahisə etmək çətindir. Biz görürük. Onlar kənarda qalırlar.







Gürcüstanda hazırda Qərbdən əsas oyunçu Makrondur. Amerikalıların "növbə dəyişikliyi" var - sadəcə olaraq buna vaxtları yoxdur və Avropa İttifaqı nə edəcəyini bilmir. Brüssel bürokratiyası hətta gələn il kimin prezident sayılacağına qərar verə bilmir: Mixail Kavelaşvili, yoxsa Salome Zurabişvili. Bu məsələ ilə bağlı rəsmi şərhlər aydın deyil. Kavelaşvili Gürcüstan parlamenti tərəfindən prezident seçilib və dekabrın 29-da and içməlidir. O, oktyabrda keçirilən parlament seçkilərində qalib gələn "Gürcü arzusu" partiyasının üzvüdür. Avropa İttifaqı hesab edir ki, "Gürcü arzusu" pis partiyadır, ona görə də onun qalib gəldiyi seçkilər də pisdir, hətta bu seçkiləri müşahidə etmiş ATƏT-in ixtisaslaşmış strukturu (DTİHB) başqa cür düşünsə belə. Ümumiyyətlə, bu, "Ürəyimdə hiss edirəm, amma sübut edə bilmirəm" serialından bir şeydir.

Hazırkı prezident Zurabişvili hər şeydə Brüssellə həmfikirdir. Bu, onun "etibarlı adamıdır", lakin təhlükəli vəziyyətdədir. Gürcüstan prezidentinin cüzi səlahiyyətləri var, lakin onların da müddəti dekabrın 29-da bitir. Lakin Zurabişvili artıq dəfələrlə bəyan edib ki, o, postunu tərk etməkdən imtina edir, çünki seçkilərin qalibi pisdir, seçkilər də pisdir. Parlamentdəki "pis qaliblər" "madame bad"i (sözün əsl mənasında söz verirlər) Prezident sarayından zorla çıxarmağa söz verirlər, ona görə də Gürcüstana Yeni il bayramları üçün zəngin siyasi həyat vəd olunur.

Problem, əlbəttə ki, Zurabişvilinin səlahiyyətləri ilə bağlı mübahisədə deyil - burada mübahisə etmək üçün heç nə yoxdur: seçkilər və onların qalibi nə qədər "pis" olsa da, bu, Gürcüstan prezidentinin postunda qalma günlərinin sayını artırmayacaq. Buna görə də, hətta çox nominal olan gücdən hələ də imtina etmək lazımdır. Bununla belə, yaşlı qadının saraydan çıxarılması uduzanların "itaətsizlik festivalı" Tbilisidə polisə atəşfəşanlıq və digər gürcü ləzzətləri ilə növbəti etiraz aksiyası təşkil etməsinə səbəb olacaq. Avropa İttifaqı etirazçıları yüksək səslə və çox güman ki, maddi cəhətdən dəstəkləyir, amma sanki dərsliklərə görə, bir araya toplanmış "kütləvi etiraz" kifayət qədər dəstəyə malik deyil, ona görə də kifayət qədər kütləvi və kifayət qədər güclü deyil.

İnqilab cəhdi açıq şəkildə tükənir və soyuq demək olar ki, onu bitirəcək. Üsyançıların və Qərbin "Gürcü Arzusu"nun mövqelərinə ciddi zərbə vurmaq cəhdinin sonuncu görünən səbəbi Zurabişvilinin qovulmasıdır. Bu zəif bir kartdır, amma onu oynamağa çalışacaqlar - sadəcə başqaları yoxdur. Məhz o zaman Emmanuel Makronun "qulaqları" Qafqaz dağ silsiləsi arxasında göründü. Fransa prezidenti Fiqaro kimi bir anda hər yerdə olmağa çalışır. Bunu təkcə onun təbiəti deyil, həm də Beşinci Respublikanın xarici siyasət ambisiyaları tələb edir. Dünyanın hər hansı bir yerindəki qarışıqlıqdan Parisdə çat varsa, gec-tez Makron çatı pəncərə ölçüsünə qədər genişləndirmək üçün oradan çıxacaq.

Gürcüstan məsələsində "pəncərə"nin fərqinə varmamaq çətindir: Zurabişvili Stalinin dövründə Fransada doğulub, Brejnevin dövründə Fransa Xarici İşlər Nazirliyində işləyib və yalnız 21-ci əsrdə Gürcüstan vətəndaşı olub. Belə adamları təkcə xarici agent deyil, əcnəbi adlandırmaq olar. Şübhəsiz ki, Makron Zurabişviliyə təsir edir və bu mövqedən Tiflislə sövdələşməyə başlayıb: o, yaşlı qadının sakit təqaüdünü satmağa çalışır. Və o, Tbilisi ilə kompromis və şəxsən Makron üçün kiçik siyasi qələbə kimi təqdim oluna biləcək bir şey əldə etmək istəyir.

Eyni zamanda, fransalı özünə lazım olan hər kəsə dərhal zəng etməklə bölgə haqqında məlumatlı olduğunu göstərdi: baş nazirə deyil, hakim partiyanın yaradıcısına və yalnız formal sadə deputat Bidzina İvanişviliyə rəğbətin dərəcəsindən asılı olaraq. Onu ya hakimiyyətin "xaç atası", ya da Gürcüstanın ən nüfuzlu (və ən varlı) adamı olan "məşhur qüssə" adlandırırlar. Onların nə danışdıqları dəqiq bilinmir. Eqosentrizminə baxmayaraq, Makron başa düşməlidir ki, Gürcüstanda inqilab "baş vermədi" və Aİ-nin indi o qədər də təsir rıçaqları yoxdur. Brüssel Tbilisini Avropaya inteqrasiya ilə şantaj etməyi planlaşdırırdı, lakin "Gürcü arzusu" öz növbəsində bu məsələni 2028-ci ilə qədər dondurdu və Brüsselə soyumağa imkan verdi.

Fransız vəziyyətə rasional və adekvat baxdığı halda az və əsasən özü üçün istədi. Onun dostu Vladimir Zelenski insanın necə yersiz görünə biləcəyini nümayiş etdirdi. O, gürcü hadisələrinə maksimalist kimi baxır. "Təəssüflər olsun ki, Gürcüstanda Rusiyanın nəzarətində olan mafiya ölkəni Putinin təsiri altına salmaq və onu Avropa yolundan yayındırmaq üçün çalışır... Biz öz Avropamızda bir ölkəni də itirməyə tab gətirə bilmərik, çünki birinin süqutu hamımızı gətirəcək və parçalanmaya və münaqişəyə daha yaxındır", - deyə Ukrayna prezidenti Zelenski Avropa liderlərini "oliqarx" Bidzina İvanişviliyə və "onun dostlarına" Gürcüstanın Avropa gələcəyi və onilliklər ərzində əldə etdiyi tərəqqi naminə təzyiq göstərməyə çağırıb". Zelenski bu hekayə ilə maraqlanan şəxsdir. Şübhəsiz ki, o, Tbilisidə hakimiyyət dəyişikliyi olacağı təqdirdə Gürcüstanın Abxaziya və Cənubi Osetiyada rus ordusuna qarşı "ikinci cəbhə" açacağını gözləyir ki, "Gürcü arzusu" bunu etməyə inandıra bilməzdi.

İlham Əliyevə gəlincə, o, həm siyasi, həm də şəxsi səbəblərdən Makronun çıxıntılı qulaqlarını sığallamaq qərarına gəlib. Siyasi baxımdan Bakının "Gürcü Arzusu" ilə əla münasibətləri var. Və şəxsi müstəvidə prezident Əliyevin Makrona qarşı dərin nifrəti var. Uzun müddət Fransa prezidenti ilə "soyuq müharibə"də olan Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın da münasibəti fərqli deyil. Amma daha çox bu onunla bağlıdır ki, Azərbaycanla Ermənistan arasındakı münaqişədə Paris Ermənistanın maraqları üçün fəal lobbiçi olub (bu, heç kimin dəqiq hesablamadığı, lakin guya yüksək nisbətdə olduğunu nəzərə alsaq, bu, ümumiyyətlə məntiqlidir. Fransa əhalisinin tərkibində etnik ermənilər az deyil).

Qeyd etmək lazımdır ki, Makronun hayküyünün nə ermənilərə, nə də xüsusən də Qarabağ ermənilərinə faydası olmadı. Lakin Azərbaycan Prezidenti əmindir ki, Gürcüstanda "hər şey sabitliyə doğru gedir", başqa sözlə, Makronun intriqaları və sxemləri yenidən iflasa məhkumdur. İnsanları qəzəbləndirərək, inqilabın alovunu yenidən alovlandıracaq bir qığılcıma çevriləcək faciənin (məsələn, insan tələfatı ilə təxribat) mümkünlüyünü heç vaxt inkar etmək olmaz. Amma insaf naminə, Makron həm konstruktiv təşəbbüslərdə, həm də qanlı təxribatlar təşkil etməkdə yaxşı prezident, siyasətçi deyil. İşlər onun xeyrinə getmir.

**V.VƏLİYEV**

# Bir zamanlar “Beşdaş”, “Evcik-evcik”, bəs indi?..

***Bu gündən dünənə... Baxır, hey baxıram. O uşaqlıq, bu uşaqlıq... O oyunlar, bu oyunlar... Uşaqların bir-birinə o sevgisi, bu sevgisi... Həyət dolu uşaqlar, həyat dolu uşaqlar. Məhəllələrin səsi-küyü, sevinci, şaqraq gülüşlü uşaqları. Nə oyunlar oynayardıq. ”Beşdaş”dan başlardıq. Bunun üçün saatlarla daş axtarıb yığar-yığar, daha sonra içindən hamarların, yumruların, rənglilərin seçərdik ki, gözoxşayan, əlimizə yatan olsun  Günlərlə bu daşların ən qəşəngin axtarardıq. Hələ gözdən oğurlanıb daş yığmağa yollanardıq... Bu daşlarla günləri biz edərdik baş. Nə bir qüssə, nə bir kədər, deyə-gülə o qayğısız uşaqlığı bu daşlarla atartutar, barmaqların on çeşidli formasından keçirərək qalib olar, xoş saatlar yaşayardıq... Bu tək bir daş oyunumu? Xeyr. Bu daş oyunu zəkamızı artırardı, göz yaddaşı bəxş edərdi uşaqlara. Əlimizin bir andaca hərəkəti saatlarla bir idmana bərabərdi. Daşlaşardı o mənalı uşaqlığımız bu daşlarda. Gün, ay nədir? - ötən, gedən. Qalan nədir? - tək xatirə...***









Tək ”Beşdaş”mı? Xeyr. ”Evcik-evcik” oyunumuz da var idi. Daşıyardıq ev-eşikdən palaz-paltar, qab-qacaq, gəlinciklər küçəmizə. Bir guşəyə palaz açıb ”evimizi” qurardıq biz. Biri ata, biri ana, biri də bala olardı. Çox sevimli ailəmizdə olanları evciklərə daşıyardıq. O illərin ”Evcik-evcik” oyunundan yaddaşlara nələr hopub? Unudulmayan ən gözəli quru lavaşı ovub, üstünə də xırdalanmış pendir səpib ”ailə” üçün hazırlanan yemək olub.






Necə şirin yeyərdilər uşaqlar bu ”yeməyi”. Uzun illər bu ”yeməyi” xəyallardan ala bilmir...

Bir sözümüz birimizə bəd gələndə küsüşərdik, küsülülük yuxumuzu ərşə çəkər, küsülülük bitənədək əzab çəkər, barışmağa can atardıq.

Binaların blokları ”konsert zallarımız” idi. Pillələnlər oturacaq. Qarşıdakı kiçicik bir ”meydança” da çalanların, oxuyanların yeri idi. Musiqi məktəbində oxuyan uşaqların biri qarmon, nağarasın, biri tarın, kamançasın gətirərdi. Səsi olan oxuyardı. Yaşıdımız tamaşaçılar pilləkəndə çalanları alqışlardı. Oxuduğumuz yerdəcə mahnıların sözlərini unudardıq, bir andaca deyib-gülüb bir-birimizə qarışardıq. Açılardı birinci mərtəbədən bir qapı: ”Ay uşaqlar, sizin əlinizdən biz hara gedək?” Açılardı ikinci mərtəbədən bir qapı: ”Ay uşaqlar, bu nə səsdir?”  Qovulmaq qorxusu çökərdi üstümüzə. Böyüklərə nə var ki, alardılar pillələri əlimizdən, sevdiyimiz bu ”zalı”. Başqa yerdə konsert olar? Tamaşaçı bəs harada əyləşərdi, çalanları, oxuyanları o haradan dinlərdi? Bax bunları düşünərək susardıq biz

Xatirələrə çevrilən mənzərələr bu günlərdə anılanda düşünürəm: - Böyüklərin hirsinə baxmayın, qoymasaydılar, qoymazdılar bizi o pillələrə. O səs-küyə tab gətirmək asanmıdır? Gözlərinin önündəcə olmaq üçün onlar bizə susurdular. Tək bununçün? Xeyr. Lap sonralar bildim ki, mən onlar bizi qapılardan dinləyirmiş  Sən demə, tamaşaçı tək məhəllə uşaqları deyilmiş. Qapının o tərəfində bizlə yaman qürur duyan neçə-neçə analar da, xalalar da var imiş

”Yeddi daş”, ”Ortada qaldı”, ”Gizlənqaç”, ”Bənövşə, bəndə düşə”, ”Ocaq yandı, su qaynadı”, ”Əlimi siçan dişlədi”, ” Xan-vəzir”, ”Tıx-tıx”, ”Dama-dama”, ”Fincan-fincan”, ”Top divarda”dan danışmıram. İndi məhəllə uşaqları hər üzü şumal olan yeddi daş heç axtarmır. Onları üst-üstə yığıb topun güclü zərbəsilə heç ətrafa dağıtmır. İndi heç ”Alma desəm aç, armud desəm, açma!”, - deyən də yoxdur. Dəqiqələrlə ortada qalıb topun zərbələrindən qurtulmaq üçün o yana-bu yana qaçan da yoxdur. Bənövşə də küskün düşüb, üz çevirib, heç yaxına gəlmir ki, bəndə düşə, ya düşməyə... Ocaq yanmır, su qaynamır.

Məhəllələrdə indi bir zamanlar təbaşirlə çəkdiyimiz dama yoxdur. Yağışın, bir də qarın pozmasından məyuslandığımız damaları gör nə vaxtdır, ”sel aparıb”. ”Top divarda”n enib, ”Xan-vəzir” ta unudulub, ”Tıx-tıx” yada düşmür, ”Fincan-fincan” da oynanmır. İndi artıq o körpəcə əlləri də heç siçanlar dişləmir. Siçanlar yerini ”maus”a verib. ”Maus”larsa əl dişləmir, ruhu dişləyir. Kompüterlər, smartfonlar, planşetlər, bir də ki playstationlar əvəzləyib o gözəl oyunları. Xoş xatirə qaynağı o ziyansız, zərərsiz oyunları

Tez-tez keçirəm məhəllələrdən. Yaman sükut çöküb məhəllələrə. Sanki uşaqlar yoxdur, hara isə gediblər. Lal sükut... Bu sükutu yaradan nə? Təbii ki, kompüter, telefonlar, planşetlər... Uşaqların əllərinə öz əlimizlə verdiyimiz xəstəliklər. Səsi çıxmasın, başı qarışsın, çöl-bayır istəməsin deyə, verdiyimiz telefonlar. Saatlarla kompüter qarşısına çökdürdüyümüz uşaqlar. Yorğun gözlər, əldən düşmüş sümüklər... Onurğası durğunluqdan ”dil açan”, özü isə əsla usanmayan, doymayan uşaqlar

Məhəllələrdə görürəm hərdən az-maz uşaq. Əllərində planşetlər, smartfonlar... Bir kənarda analar söhbət edir qonşularla şirinşirin. Uşaqlarsa saatlarla oyunlarda. Körpələri vəhşiliyə sürükləyən oyunlarda... Telefondan gələn səslərə bax, gör necə də ətraflarda gurlayır: atışmalar, çığırışmalar, vahimələr...

Bir kənardasa yelləncəklər, on cür oyun qurğuları. Baxdıqca uşaq olmaq istəyirəm... Bir zamanlar heç tapmazdıq biz bunları. Ağaclardan kəndir asıb yelləncəklər qurardıq. Yelləndikcə nazikləşən kəndirlərsə qəflətən qırılar, üzüüstə yerə düşüb, yamanca yaralanardıq...

Hayqırmaq istəyirəm: - Ay uşaqlar, yerə qoyun telefonları, gəlin yellənin, atılın-düşün, gününüzü heç olmasa bu oyunlarla keçirin...

Ana susur, ata susur... Nə üçün görən? Özlərinin uşaqlıqda oynadığı oyunları görən niyə öyrətmirlər uşaqlara? Gözlərinin önündəcə övladları yuvarlanır ətalətə, xəstəliyə, süstlüyə... Bilə-bilə, görə-görə görən niyə susur ana? Olanlara, keçənlərə nə üçün göz yumur ata?

Heç gec deyil, ay atalar, ay analar! Uşaqları aparın öz keçmişinizə. Oyunlara qonaq edin, onlara da daddırın o şirinliyi, savab edin. O illərdən uşaqlara bir pay verin... Edin, hökmən edin. Uşaqlara gələcəkdə bir zamanlardan danışmağa söz verin...

...Bir zamanlar ” Beşdaş”, ”Yeddi daş” oynardıq. Başlayardı bu daşlardan oyunlarımız. Heç bitməzdi, tükənməzdi  Daşlaşıbdır uşaqlığımız o daşlarda. O kiçicik daşlardan başlayan oyunlarda... Harda görsən o daşlardan, xatirələr düşür yada: şirin-şəkər xatirələr. Uşaqlıqdan qalan gözəl xatirələr...

İndi deyin, necə uçmasın xəyal o illərə? Noğul kimi oyunlardan bu gün əsər qalmayan o illərə...

***Mətanət Məmmədova***

# Dmitri Solonnikov: "Paşinyan başa düşür ki, İrəvan sülh müqaviləsi üçün Bakının şərtləri ilə razılaşmalı olacaq"

"Və bu, Azərbaycan Respublikası Prezidentinin ötən həftə dediyi kimi Ermənistanda Konstitusiyaya dəyişiklik ediləcəyi təqdirdə baş verəcək"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb*







***Müasir Dövlət İnkişafı İnstitutunun (Rusiya) direktoru Dmitri Solonnikov "Moskva-Baku" portalına müsahibəsində Ermənistanın baş naziri Nikol Paşinyanın Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı dinc bəyanatlarının arxasında nələrin dayandığını açıqlayıb. Müsahibəni oxucularımıza təqdim edirik.***

***- Dmitri Vladimiroviç, son günlər Ermənistanın baş naziri Ermənistan-Azərbaycan nizamlanması ilə bağlı, deyək ki, sülhpərvər bəyanatlar və mesajlar verir. Bu gün o, 1994-cü ildən Qarabağın Azərbaycana qaytarılması ətrafında danışıqlar prosesinin aparıldığını və danışıqlar prosesinin başqa məzmununun olmadığını bildirib. Bundan əvvəl Paşinyan ATƏT-in Minsk qrupunun ləğvinin zəruriliyi, iki ölkənin sərhədində üçüncü qüvvələrin yerləşdirilməsindən imtina (yalnız delimitasiyadan sonra xəbərdarlıq edilməklə) və bir sıra digər məqamlarda Bakının mövqeyi ilə mahiyyətcə razılaşıb. Azərbaycanın mövqeyi ilə nisbi həmrəylik göstərib... Belə bəyanatların səbəbi nədir?***

- Mən də burada rezervasiya edərdim. Və sonra bütün bu bəyanatlardan sonra Nikol Paşinyan Ermənistana səfər etmək təklifi ilə Emmanuel Makrona üz tutdu, iki ölkənin strateji tərəfdaşlığından danışdı, dedi ki, Ermənistanın indiki suverenliyini və təhlükəsizliyini təmin edən məhz Fransadır, etibarlı tərəfdaşdır və sairə və ilaxır. Buna əsaslanaraq, mən Paşinyanın "sülhpərvər" bəyanatlarını hərtərəfli, müxtəlif aspektləri nəzərə alaraq, bu gün baş verən və ya dünyada gözlənilən proseslər prizmasından nəzərdən keçirərdim. Fakt budur ki, dünyada vəziyyət böyük ehtimalla tezliklə dəyişəcək. ABŞ və Avropa İttifaqı, ABŞ və Qərbi Asiya ölkələri arasında beynəlxalq vəziyyətin dəyişəcəyi tamamilə aydındır. ABŞ-dan Cənubi Qafqaza yeni yanaşmalar olacaq. Çətin ki, Ağ Evin yeni administrasiyası indiki Bayden administrasiyasının etdiyi kimi hamını dəstəkləsin, yalnız Rusiyanı daha da pisləsin. Donald Tramp administrasiyası Rusiyanı sevməyəcək, lakin kiminsə siyasi ambisiyaları naminə Rusiya Federasiyasına qarşı vəsait xərcləməyəcək.

Burada Avropa İttifaqı daxilində vəziyyətin mürəkkəbləşməsi də öz rolunu oynayacaq. Və Aİ-də müxtəlif oyunlar oynamaq getdikcə çətinləşir. Biz Fransanın özündə vəziyyətin nə qədər ağır olduğunu görürük. Reallıq budur: Makron indi elə bir vəziyyətdədir ki, onun Ermənistandakı ambisiyalarını reallaşdırmaq, beləliklə də dünyanın bir sıra digər yerlərində məğlubiyyətini geri qaytarmaq haqqında deyil, daxili vəziyyət və bununla əlaqədar olaraq özünü də nə gözlədiyini düşünməlidir. Fransa prezidentinin hökumətlə daimi problemləri var, sual ondan ibarətdir ki, yeni hökumət nə qədər davam edəcək, büdcə ilə bağlı problemlər var- onun 2025-ci ilin büdcəsini qəbul edib-etməyəcəyi bəlli deyil; Fransada Makronun tənqidi getdikcə dərinləşir. Artıq onun impiçmentinin mümkünlüyü haqda danışılır.

Ona görə də bu gün İrəvanın Fransanın "belə etibarlı tərəfdaş" olduğunu söyləməsi, Makronun problemlərini nəzərə alsaq, pis oyunda yaxşı oyunçu kimi görünür. Trampın ABŞ-da hakimiyyətə gəlməsi ilə Qərb Cənubi Qafqazın işlərinə aktiv müdaxilədən, Ermənistana aktiv dəstəkdən uzaqlaşacaq. Paşinyan isə artıq başa düşür ki, o, Azərbaycanla hansısa yolla danışıqlar aparmalı, onun şərtləri üzrə sülh razılaşması əldə etməli, həmçinin, görünür, Rusiya ilə münasibətləri yaxşılaşdırmalıdır.

ABŞ-da təcridçilər güclənir və gələcəkdə onların sayı daha çox olacaq. Qlobal çətinliklər ABŞ, Avropa İttifaqı və xüsusilə Fransa üçün xarici siyasət avantüralarına pul xərcləməyin getdikcə çətinləşdiyini göstərir. Ermənistan isə birtəhər bu obyektiv reallıqla barışmalı olacaq. Paşinyan, deyəsən, bunu anlayır, bilir ki, onun istək və istəklərinə reaksiya daha az olacaq.

Eyni zamanda, onu da nəzərə almaq lazımdır ki, hazırkı baş nazirin ritorikası İrəvan üçün vəziyyətin dəyişməsi ilə- daxili və ya xarici siyasətdə- dəyişir. Ermənistanın baş naziri söz ustasıdır, bu gün bir şey demək istəyir, sonra başqa söz demək istəyir. Bu gün istəyirdi- dedi ki, Ermənistan-Azərbaycan sərhədində üçüncü qüvvələrə ehtiyac yoxdur və sabah Makron onun yanına gələcək, başını sığallayacaq, nəsə söz verəcək və Ermənistanın baş nazirinin öz səhəsində yaxşı iş gördüyünü deyəcək. Və o zaman Paşinyan əvvəlki açıqlamalarını unudacaq. Baş nazir konkret məqamda faydalı hesab etdiyi şeyi edəcək.

Yəni, prinsipcə, bütün bu cəhətlər 2025-ci ildə Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanması imkanını artırır. Və bu, Azərbaycan Respublikası Prezidentinin ötən həftə dediyi kimi Ermənistanda Konstitusiyaya dəyişiklik ediləcəyi təqdirdə baş verəcək. Ancaq biz sadəcə başa düşməliyik ki, biz bir neçə ildir ki, sülh müqaviləsinin imzalanması imkanlarından danışırıq. Və sonda həmişə bəzi "amma"lar çıxır.

***- Bu ay, ilin sonuna qədər Ermənistan bir sıra ölkələrlə: ABŞ, Fransa, Yunanıstan, Kiprlə hərbi əməkdaşlıq üzrə təmasları son dərəcə intensivləşdirdi. Gələn il üçün qarşılıqlı fəaliyyət planları imzalanır, görünür, bu dövlətlər artıq Ermənistan ordusunda islahatlarla məşğuldurlar...***

- Ermənistan, işarə etdiyim kimi, gələn il dünyanın dəyişəcəyindən ehtiyat edərək müxtəlif yeni planlar hazırlayır və hərbi əməkdaşlıq üzrə yenidən danışıqlar aparır. Paşinyan hesab edir ki, 2025-ci ildə İrəvan üçün strateji məsələlərin həlli çətinləşəcək.

Eyni zamanda, Ermənistanın bu cür hərbi əməkdaşlıqla bağlı "ortaya atılmış yürüşü" İrəvanın hərbi əlaqələri şaxələndirdiyinin daha bir göstəricisidir. Bu, Paşinyanın çox sülhpərvər bəyanatlarının səmimiliyini bir daha sual altına qoyur. Aydındır ki, İrəvan revanşist əhval-ruhiyyə ilə oynamaqda davam edir. Və bütün bu bağlanmış əməkdaşlıq planları və təmaslar onu göstərir ki, İrəvan Ermənistanın gələcəyini NATO-da görür və silahlı qüvvələrini Şimali Atlantika Alyansı standartlarına keçirəcək.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
25 dekabr
2024-cü il

# "Mançester Siti" bu futbolçuları satışa çıxarır



"Mançester Siti" rəhbərliyi qış transfer pəncərəsində komandada əsaslı dəyişikliklər etməyi planlaşdırır. QOL.az xəbər verir ki, bu barədə "Daily Record" məlumat yayıb. Klub rəhbərliyi komandanın uğursuz nəticələrinə görə narahatdır. Onlar vəziyyətdən çıxış yolunu heyətdə böyük dəyişikliklər etməkdə görürlər.

"Mançester Siti" əsas heyətdən ən azı 5 və ya 6 futbolçu ilə yolları ayırmağı planlaşdırır. Klubun bu qış prioriteti yarımmüdafiəçi tapmaq olacaq. Əsas namizədlər isə Martin Subimendi ("Real Sosyedad") və Bruno Gimaraeşdir ("Nyukasl"). Klub həmçinin "Yuventus"un qapıçısı Mişel Di Qreqorioya da göz dikib.

## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

## Hacıqabulda traktorla avtomobil toqquşub



Hacıqabul rayonu ərazisində traktor və minik avtomobilinin toqquşması ilə nəticələnən yol-nəqliyyat hadisəsi olub. SİA xəbər verir ki, qəza saat 11 radələrində Bakı-Qazax avtomobil yolunun Hacıqabul rayonu ərazisindən keçən hissəsində qeydə alınıb. Hadisə zamanı ekskavator tipli traktor və "Mercedes" markalı minik maşını toqquşub. Minik avtomobilinin sürücüsü və 3 sərnişin xəsarət alıb.

Hadisə yerinə Hacıqabul və Şirvan təcili təxirə salınmaz tibbi yardım briqadaları və Fövqəladə Hallar Nazirliyinin əməkdaşları cəlb edilib. Yaralılar Şirvan Şəhər Mərkəzi Xəstəxanasına təxliyə olunublar. Faktla bağlı araşdırma aparılır.

## Qarşılayın: Londondan Nyu-Yorka 2 saata uçacaq təyyarə!

**...Alimlər Londondan Nyu-Yorka 2 saata uça biləcək təyyarə layihəsini açıqlayıblar Pekində yerləşən Kosmik Nəqliyyat şirkəti Yunxing adlı səsdən sürətli təyyarə üzərində işləyir. SİA-nın xarici qaynaqlardan əldə etdiyi məlumata görə, planlar reallaşarsa, Yunxing saatda 4900,45 kilometr sürət yığa biləcək: bu, onun ən sürətli rəqibi - NASA-nın Son of Concorde təyyarəsindən üç dəfə sürətlidir.**

Yunxing korpusu xüsusilə davamlı materiallardan ibarət olacaq, çünki o, böyük temperatur dəyişikliklərinə tab gətirməli olacaq. Təyyarənin "ürəyi" daxil olan havanı sıxmaq üçün mühərrikin özünün irəli hərəkətindən istifadə edən "ramjet mühərrikidir". Təyyarə raketlər kimi şaquli şəkildə qalxıb enə biləcək. Sınaq uçuşu 2027-ci ilə planlaşdırılıb. Uğurlu olarsa, ilk kommersiya sərnişinləri 2030-cu ildə Yunxing üzərində uçacaq.

*Nazlı Almuradova*




*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 2700**